Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 108 (8131) ŞƏNBƏ, 18 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Prezident İlham Əliyev islam həmrəyliyinə böyük töhfələr verir

Mayın 17-də Prezident İlham Əliyev müqəddəs ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüşdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli səfirlər.

Müqəddəs ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. İlk növbədə, xahiş edirəm ki, mənim səmimi salamlarımı, xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Bildiyiniz kimi, müsəlman ölkələri ilə bizim çox sıx əməkdaşlığımız var. Siyasi sahədə fəal dialoq aparılır. Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox böyük əhəmiyyət kəsb edə bilər. Müsəlman ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu məsələlər daim gündəlikdədir. Əlbəttə, biz çox istərdik ki, təmsil etdiyiniz ölkələrdən olan şirkətlər Azərbaycanda müxtəlif layihələrdə daha fəal iştirak etsinlər.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda turizmin inkişafı sürətlə gedir. Çox şadam ki, müsəlman ölkələrindən olan turistlər Azərbaycana gəlirlər və onların sayı ildən-ilə artır. Bir sözlə, ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bu əlaqələrin gələcək inkişafı üçün çox yaxşı şərait və imkanlar var.

Biz beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə qarşılıqlı dəstək göstəririk. Bu qarşılıqlı dəstək bizim əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyi bizim üçün çox əhəmiyyətlidir. Bildiyiniz kimi, Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonu uzun illərdir işğal altında saxlayır. Bu münaqişə və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu, beynəlxalq hüququn pozulmasıdır. Baxmayaraq beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etmişlər, əfsuslar olsun ki, işğalçı dövlətə lazımi təzyiqi göstərmirlər. BMT Təhlükəsizlik Şurası - dünyanın ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ancaq bu qətnamələr kağız üzərində qalıb və bu, ikili standartların təzahürüdür. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və Azərbaycanın ərazi bütövlüyü tam beynəlxalq dəstək alıbdır. Ancaq işğalçıya kifayət qədər təzyiq göstərilmir. Münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi birmənalıdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatlarda bizə göstərilən dəstəyə görə müsəlman ölkələrinə bir daha təşəkkürümü bildirirəm.

Azərbaycan da, öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Bildiyiniz kimi, biz islam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət veririk və bu istiqamətdə əməli addımlar atılır. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər islam həmrəyliyinin möhkəmlənməsinə xidmət göstərir. Biz hamımız yaxşı bilirik ki, islam həmrəyliyinin möhkəmlənməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır.

Bildiyiniz kimi, eyni zamanda, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı çoxsaylı tədbirlər keçirilir. Bu yaxınlarda Bakıda keçirilmiş V Mədəniyyətlərarası Dialoq Forumu da bu sıradan olan tədbirlərdəndir. Onu da bildirməliyəm ki, Azərbaycan islam mədəniyyətini dünyada təbliğ etməklə bağlı çox böyük səylər göstərir. Bir çox ölkələrdə konfranslar, sərgilər, təqdimatlar keçirilir və beləliklə, biz islamı dünyaya sülh, mərhəmət dini kimi təqdim edirik.

Keçən il Naxçıvan - bizim qədim şəhərimiz İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. Bu qərara görə biz bütün müsəlman ölkələrinə minnətdarıq. Onu da qeyd etməliyəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın islam həmrəyliyinin möhkəmlənməsində oynadığı rolu çox yüksək qiymətləndirir.

Mən bir daha sizi ürəkdən salamlayıram. Bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı dövlət-hökumət başçılarına çatdırasınız. Təmsil etdiyiniz ölkələrin xalqlarına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

Ardı 2-ci səh.

# İrina Viner-Usmanova birinci xanım Mehriban Əliyevanın Azərbaycanda bədii gimnastika növünün inkişafında xüsusi rolunu yüksək qiymətləndirdi





Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova Prezident İlham Əliyevin sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edilib. Dövlət başçısı ordeni İrina Viner-Usmanovaya təqdim etdi.

Prezident İlham Əliyev Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanı Azərbaycanın yüksək mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbrik etdi və onun ölkələrimiz arasında idman və ümumilikdə dostluq əlaqələrinin inkişafındakı rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya Azərbaycanda gimnastika məktəbinin yaradılması işinə verdiyi böyük töhfəyə görə də minnətdarlığını bildirdi. Dövlət başçısı İrina Viner-Usmanovanın təkcə Azərbaycanda deyil, dünya idman ailəsində böyük nüfuza malik olduğunu qeyd edərək məhz onun səyləri nəticəsində Rusiya gimnastlarının da uzun illərdir yüksək nəticələr göstərdiyini vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən İrina Viner-Usmanova Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən ona göstərilən diqqətdən böyük məmnunluq hissi keçirdiyini qeyd etdi. O, birinci xanım Mehriban Əliyevanın Azərbaycanda bədii gimnastika növünün əsasının qoyulmasında və inkişafında xüsusi rolunu yüksək qiymətləndirdi. İrina Viner-Usmanova Azərbaycanda bədii gimnastika növünə göstərilən qayğıdan danışaraq Bakıda çox möhtəşəm gimnastika arenasının inşa edildiyini qeyd etdi. Azərbaycana səfərlərindən məmnunluq hissini ifadə edən İrina Viner-Usmanova ölkəmizə hər gəlişi zamanı böyük inkişaf proseslərinin, yeni-yeni memarlıq nümunələrinin şahidi olduğunu vurğuladı.

Sonda xatirə şəkli çəkdirildi.

# Milli Məclis hər zaman Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətə dəstək olub

## Azərbaycana qarşı istənilən qarayaxma kampaniyasına adekvat cavab veriləcək

Spiker Oqtay Əsədovun sədrliyi ilə dünən keçirilən Milli Məclisin iclası "Standartlaşdırma haqqında" qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi ilə işinə başladı.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə sənədlə bağlı məlumat verərək bildirdi ki, yeni qanun 5 fəsil və 26 maddədən ibarətdir. Qanun standartlaşdırmanın məqsəd və prinsiplərini, standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, qəbulu və tətbiqini, bu sahədə fəaliyyətin maliyyələşdirilməsi mənbələri və digər məsələləri müəyyən edir.

İkinci oxunuş zamanı deputatlar layihə ilə bağlı fikir və təkliflərini səsləndiriblər. Komitənin iclasında sənədə bir neçə texniki düzəliş edilib. Komitə sədri qanun layihəsinin iqtisadiyyatın innovasiyalı inkişafı üçün yeni imkanlar açacağını və beynəlxalq əməkdaşlığın daha da dərinləşməsinə öz töhfəsini verəcəyini vurğuladı. Sənəd səsverməyə çıxarılaraq qəbul olundu.

Deputatlar Mülki Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihəsini də üçüncü oxunuşda təsdiqlədilər.

Ardı 3-cü səh.

# İndi Azərbaycan dünyada təkcə neft-qaz ölkəsi kimi tanınmır

## Vaxtı ilə xarici sərmayəyə ehtiyacı olan ölkəmiz bu gün özü xaricə investisiya yatırır

Azərbaycanda aparılan iqtisadi islahatların əsas məqsədlərindən birinin qeyri-neft sektorunu inkişaf etdirmək olduğu məlum faktdır. Bu, ölkənin neft amilindən asılılığını aradan qaldırmaqla yanaşı, ixrac qabiliyyətini də artırır. Digər tərəfdən, yerli istehsal hesabına bir çox məhsulların idxalına son qoyulur və bu hesaba həm də ölkənin valyuta ehtiyatlarının xaricə axınının müəyyən qədər qarşısı alınır.

Qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən biri sənaye parklarının və məhəllələrinin yaradılmasıdır. Hazırda Bakı, Sumqayıt və Mingəçevir şəhərlərində müxtəlif sahələr üzrə sənaye parkları fəaliyyət göstərir. Neftçalada, Masallıda, Şirvanda, Sabirabadda sənaye məhəllələrinin daha geniş fəaliyyəti üçün mühüm işlər görülür. Neftçala və Masallı sənaye məhəllələrində isə istehsal edilən məhsullar yerli tələbatı ödəməklə yanaşı, xarici ölkələrə də idxal olunur. Bu sırada yeni yaradılan Pirallahı Sənaye Parkının da adını çəkmək olar.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin iştirakı ilə mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimi keçirilib. Tədbirdə dövlət başçısına məlumat verilib ki, ölkə üzrə kimya, təkrar emal, yüngül sənaye, gəmiqayırma, əczaçılıq sahələrində ixtisaslaşmış 5 sənaye parkı fəaliyyət göstərir. Hazırda həmin sənaye parklarında 9 minə yaxın insan daimi işlə təmin edilib. Pirallahı Sənaye Parkı dövlət başçısı tərəfindən 2016-cı ildə imzalanan müvafiq sərəncama əsasən "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin tərkibində yaradılıb.

Prezident İlham Əliyev həmin tədbirdə qeyri-neft sektorunun inkişafına göstərilən dövlət dəstəyini və yeni açılan müəssisənin əhəmiyyətini vurğulayaraq demişdir: "Bu parkın yaradılmasında məqsəd qeyri-neft sənaye sahələrinin davamlı inkişafını, sənaye sahələrində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsini, qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin yaradılmasını təmin etməkdir. Bundan başqa, bu layihənin icrası əczaçılıq sənayesinin inkişafı və dəstəklənməsi, əczaçılıq məhsullarının idxaldan asılılığının azaldılması, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində əhalinin məşğulluğunun artırılması məqsədi daşıyır.

Ardı 2-ci səh.



# Torpağın bərəkəti sudan keçir

Kənd təsərrüfatının inkişafı çərçivəsində meliorativ tədbirlərin həyata keçirilməsi üçün böyük layihələr icra olunur. Müxtəlif bölgələrdə suvarma sistemləri şəbəkəsi təzədən qurulur, yeni sututarlar yaradılır, su kanalları çəkilir.

Qədim əkinçilik mədəniyyəti olan Qubada da bu məsələ diqqət mərkəzindədir. Rayonun 120 mindən çox olan kənd əhalisinin böyük əksəriyyətinin dolanışığı bağçılıq, əkinçilik və tərəvəzçilikdən çıxır. Bu səbəbdən ilbəil fərdi əkin və bağ sahələri genişlənir. Son vaxtlar Qubada yeni təsərrüfat sahəsi - fındıqçılıq da inkişaf edir. Bütün bunlar isə suvarma suyuna tələbatı artırır.

Tələbatın ödənilməsi isə rayon suvarma sistemləri idarəsinin fəaliyyətindən çox asılıdır. Kollektiv torpaqları meliorativ cəhətdən sağlamlaşdırmaq və əkin dövriyyəsinə qaytarmaq, susuz əraziləri su ilə təmin etmək, çayların axınlarını təmizləmək, bəndlər tikmək kimi vacib işləri həyata keçirir. İdarənin rəisi, əməkdar mühəndis Nazir Dadaşov bildirdi ki, melioratorlar hazırda rayonda mövcud olan 26033 hektar suvarılan torpaq sahəsinə xidmət göstərir: "Rayonda özəl torpaq sahibləri tərəfindən bağ və əkin sahələrinin genişləndirilməsi böyük vüsət alıb.

Ardı 7-ci səh.

# Azərbaycan böyük futbol bayramına hazırlaşır

## Bakı növbəti mötəbər idman tədbirinə evsahibliyi edəcək

Azərbaycanı dünyaya tanıdan, ölkəmizə gələn xarici turistlərin sayının ildən-ilə artmasına səbəb olan məsələlərdən biri Bakının beynəlxalq tədbirlər mərkəzinə çevrilməsidir. Bakı uzun müddətdir bir sıra qlobal əhəmiyyətli tədbirlərin baş tutduğu əsas məkandır, humanitar forumlara, mədəniyyətlər və sivilizasiyalararası dialoqlara layiqincə evsahibliyi edir.

İndiyədək Azərbaycanda beynəlxalq təşkilatların çoxlu sayda siyasi, iqtisadi və humanitar mövzularda tədbirləri keçirilib. Bu sıraya müxtəlif mövzulu beynəlxalq konfransları, simpoziumları da aid etmək olar. Bu ondan xəbər verir ki, Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi unikal məkandır. Respublikamız bu tədbirlərin hamısına layiqincə evsahibliyi edib. Bu evsahibliyinə və ideal təşkilatçılığa isə başqa ölkələr ancaq həsəd apara bilərlər.

Hər bir ölkəni beynəlxalq miqyasda cəlbedici edən cəhətlərdən biri də onun malik olduğu beynəlxalq imicdir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar da hansısa ölkədə öz tədbirlərini keçirərkən onun imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini, təhlükəsizliyini də nəzərə alırlar.

Ardı 7-ci səh.



# Prezident İlham Əliyev islam həmrəyliyinə böyük töhfələr verir



*Əvvəli 1-ci səh.*

❖ ❖ ❖

Sonra Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri **Nasir Əbdül Kərim Əbdül RƏHİM** çıxış edərək dedi:

- Zati aliləri cənab Prezident.

Azərbaycan Respublikasında akkreditasiya olunmuş müsəlman ölkələrinin səfirləri və diplomatik missiyalarının rəhbərləri adından Sizi müqəddəs ramazan ayı münasibətilə təbrik etmək mənim üçün böyük şərəfdir.

Cənab Prezident, biz hamımız bu müqəddəs ayda bizimlə görüşmək üçün dəyərli vaxtınızı ayırdığınıza, əsasını qoyduğunuz ənənəyə görə Sizə minnətdarıq və bu Sizin müsəlman ölkələrini və xalqlarını birləşdirən qardaşlıq əlaqələrinə dəstək və dayaq olmaq öhdəliyinizin bir təzahürüdür.

Bu müqəddəs ayda müsəlmanlara sülh, həmrəylik abhavasında bir araya gəlmək imkanı verilməklə islamın xeyirxah dəyərlərinə çağırış edilir, fikir və ruh yüksəlir və bununla da sakitlik, sabitlik, mənəvi yüksəliş və xeyirxahlığa doğru birlikdə addım atılır. Beləliklə, hər birimizin içində zəiflərə və aztəminatlılara yardım etmək, qardaşlıqda və ortaq taledən agah olaraq bağışlamaq və qəbul etmək xüsusiyyəti oyanır.



Cənab Prezident, nisbətən gənc Azərbaycan Respublikası müstəqilliyin ilk illərində bir çox çağırışlarla üzləşmişdir və o zaman onların öhdəsindən gəlmək qeyri-mümkün görünürdü. Lakin, ölkə rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan bu təhlükələrin öhdəsindən uğurla gələrək inkişaf etmiş, müasirliyi qəbul edən və gələcəyə doğru sürətlə addımlayan bir ölkəyə çevrilə bilmişdir. Eyni zamanda, qürur hissi ilə öz qədim islam irsini və mədəniyyətini də qoruya bilmişdir.

Müsəlman ölkələrinin səfirləri kimi biz, qardaş Azərbaycanın möhtəşəm inkişafını, yenidən qurulmasını, bir çox sahələrdə apardığı islahatlarını və uğurlu transformasiyasını heyranlıqla müşahidə etmişik.

Müsəlman ümməsinin əziz, ayrılmaz və vacib bir üzvü kimi, Azərbaycan müsəlman aləminin Dağlıq Qarabağdan tutmuş Əl-Qüds, Əl-Şərif, Kəşmirə qədər və digər işğal olunmuş müsəlman əraziləri ilə bağlı məsələlərdə ədalətli haqq işini böyük səylə dəstəkləmiş, habelə bu günün çoxsaylı çağırışları ilə mübarizədə birgə səylərin önündə olmuşdur. Bunlardan biri də məkrli və yanlış məfhum olan islamofobiya ilə mübarizə aparmaqdır.

Sakit düşüncə ilə, təsdiqlənə bilən danılmaz mədəni, tarixi və dini faktları gətirməklə bu məfhumu təkzib edərək islamın tarixdə, öz qızıl əsrində insan birliyinin və mədəniyyətinin bütün sahələrinə əsas töhfə verən və bəşəriyyətin hamisi kimi böyük rolunu vurğulayaraq Bakıda mədəniyyətlərarası və konfessiyalararası dialoqa dair çoxsaylı vacib konfranslar keçirməklə, "Bakı Prosesi"nə start verməklə Siz bəşəriyyətin universal və ortaq dəyərlərinə hörmət bəslənilməsinin vacibliyini qeyd etməyə davam edirsiniz. Sadəcə, fikir ayrılıqlarını aradan qaldırmaq, eləcə də sivilizasiyaların toqquşması adlanan yanlış arqumenti ifşa etmək üçün bəşəriyyətin nəyi paylaşdığını vurğulamaqla şərəfli missiyanın önündəsiniz. Biz bunu bir neçə gün öncə Bakıda keçirilmiş V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda da gördük. Qoşulmama Hərəkatına bu il rəhbərlik etməklə inkişaf etməkdə olan ölkələrin və bəşəriyyətin üzləşdiyi məsələlərin həllində fəal iştirak edirsiniz.

Azərbaycanın sülhün, inklüzivliyin və hörmətin üstünlük təşkil etdiyi, müxtəlif dinlərin nümayəndələrinin bir-biri ilə harmoniya içində yaşayıb-çalışması ilə islamın həqiqi ruhunu nümayiş etdirən parlaq ulduzlardan biri olması danılmazdır. Bunu müşahidə etmək zövq verir. Beləliklə, dünyanın müxtəlif guşələrindən olan qonaqlar çox müsbət təəssüratlarla öz evlərinə qayıdır, Azərbaycan və islam haqqında məlumatlar onların yaddaşına həkk olunur.

Cənab Prezident, müsəlman ümməsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən həllini dəstəkləyir və bu məsələdə Azərbaycanın yanındadır, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bütün qətnamələrin seçmə üsulu ilə yox, bərabər şəkildə icrası üçün çağırış edir.

Bu müqəddəs ayda biz bütün işğal olunmuş müsəlman ərazilərinin və müqəddəs yerlərin öz həqiqi sahiblərinə qayıdacağı, ümməmizin islamın adına ləkə gətirən pis, bədxah və cahil qüvvələri məğlub edəcəyi və bununla da bəzi ölkələrimiz üzərində olan qara buludların çəkiləcəyi, habelə qardaş ölkələrimiz arasında birlik və harmoniyanı bərqərar etmək üçün fikir ayrılıqlarının aradan qaldırılacağı günün yaxınlaşmasını arzu edirik. Bu da bizə innovasiya və tərəqqidə bəşər sivilizasiyasına mühüm töhfə verən tərəf kimi öz həqiqi yerimizi tutmağa imkan verəcəkdir.

Zati-aliləri, müsəlman ölkələrinin səfirləri və diplomatik missiyaların rəhbərləri adından sidq ürəklə Sizə və ailənizə cansağlığı, səadət və uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, inkişaf və rifah arzulayırıq.

Allah Sizi, Azərbaycanı və islam ümməsini qorusun.

Çox sağ olun, cənab Prezident.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

## Yeni səfir Azərbaycan-Ukrayna münasibətlərinin inkişafında səylərini əsirgəməyəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevskinin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Vladislav Kanevski fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Vladislav Kanevski etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycan-Ukrayna münasibətlərinin müxtəlif aspektləri, o cümlədən ticarət dövriyyəsi, iqtisadi əməkdaşlıq, sərmayə qoyuluşu, mədəni əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



Səfir əminliyini ifadə etdi ki, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Ukrayna-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində səylərini əsirgəməyəcək.

## Azərbaycan Respublikası ilə Çex Respublikası arasında bir sıra sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurulub



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov mayın 17-də Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov ölkəmizin müstəqilliyini bərpa etməsindən sonra Azərbaycan-Çexiya əlaqələrinin inkişaf mərhələsinə qədəm qoyduğunu bildirərək dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin, görüşlərinin ölkələrimiz arasındakı münasibətlərin inkişafına mühüm töhfələr verdiyini deyib. 2015-ci ildə ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalandığını xatırladan Baş nazir qeyd edib ki, Azərbaycan Respublikası ilə Çex Respublikası arasında siyasi, iqtisadi, humanitar, elmi-texniki və digər sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurulub.

Azərbaycanın Dağlıq Qarabağ regionunun və onun ətrafında yerləşən 7 rayonun uzun illərdir erməni işğalı altında olduğunu bildirən Novruz Məmmədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə, Xocalı soyqırımı ilə bağlı qəbul olunmuş sənədə görə Çex Respublikasına və onun parlamentinə minnətdarlığını ifadə edib.

Ölkəmizə geniş tərkibdə nümayəndə heyəti ilə səfər etdiklərini vurğulayan Radek Vondraçek Azərbaycan ilə Çexiya arasında çox yaxşı münasibətlərin mövcud olduğunu, bu səfərlərinin də ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə töhfə vermək məqsədi daşıdığını vurğulayıb. Azərbaycanın Çexiyanın etibarlı tərəfdaşı olduğunu qeyd edən Radek Vondraçek ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəklədiyini söyləyib.

Görüşdə ölkələrimizin parlamentləri arasında da yaxşı əlaqələrin qurulduğu qeyd olunub, həmçinin hökumətlərarası birgə komissiyanın fəaliyyətinə, enerji, turizm, ticarət, təhsil sahələrində əməkdaşlığın genişləndirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## S.N.Cabbarovun Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Siraqəddin Nəcəf oğlu Cabbarov Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## N.M.İsmayılovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Nazim Mehdi oğlu İsmayılov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## N.M.İsmayılovun Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Nazim Mehdi oğlu İsmayılov Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## S.N.Cabbarovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Siraqəddin Nəcəf oğlu Cabbarov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## A.C.Məlikovun xatirəsinin əbədiləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı, akademik Arif Cahangir oğlu Məlikovun xatirəsini əbədiləşdirmək məqsədilə **qərara alıram:**

1. Bakı Şəhər İcra Hakimiyyəti:

1.1. Fəxri xiyabanda Arif Məlikovun qəbirüstü abidəsinin qoyulmasını təmin etsin;

1.2. Bakı şəhərindəki küçələrdən birinə Arif Məlikovun adının verilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

2.1. Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə Bakı şəhərində Arif Məlikovun heykəlinin ucaldılmasını təmin etsin;

2.2. Bakı şəhərində yerləşən musiqi məktəblərindən birinə Arif Məlikovun adının verilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## İndi Azərbaycan dünyada təkcə neft-qaz ölkəsi kimi tanınmır

### Vaxtilə xarici sərmayəyə ehtiyacı olan ölkəmiz bu gün özü xaricə investisiya yatırır

*Əvvəli 1-ci səh.*

Ümumi sahəsi 30 hektar olan parkın rezidentləri 7 il ərzində torpaq, gəlir, əmlak, əlavə dəyər vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlara görə gömrük rüsumundan azaddır".

Bu müəssisənin açılması ölkəmiz üçün mühüm hadisədir. İllik istehsal gücü 150 milyon şpris olan müəssisənin investisiya dəyəri 9,5 milyon manatdır. Onun maliyyələşdirilməsi üçün İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 5 milyon manat güzəştli vəsait ayrılıb. Zavodda Almaniya, İsveçrə, İtaliya, Türkiyə, İngiltərə və Yaponiyadan gətirilən yüksək texnoloji avadanlıqlar quraşdırılıb ki, bu da istehsal olunan məhsulların xarici bazara çıxarılmasına imkan verəcək. Hədəf ilkin olaraq Rusiya, Gürcüstan, İran və Orta Asiya ölkələridir. "Made in Azerbaijan" brendi ilə istehsal ediləcək məhsulun keyfiyyəti yüksək olduğu üçün digər ölkələrin bazarına da çıxmaq mümkün olacaq.



Bəli, bu gün Azərbaycanda aparılan islahatların əsas məqsədlərindən biri də iqtisadiyyatın şaxələndirilməsi yolu ilə qeyri-neft sektorunun inkişafıdır. Bunun üçün isə ilk növbədə qeyri-neft sənayesinin inkişafına nail olmaq lazımdır. Elə qeyd etdiyimiz sənaye parkları və məhəllələrinin yaradılması məhz bu zərurətdən doğur. İndi həmin park və məhəllələrdəki müəssisələrin istehsal etdikləri məhsullar rəqabətqabiliyyətli və ixracyönümlü olduğu üçün xarici bazara ixrac olunur. Bunun nəticəsidir ki, cari ilin 4 ayında qeyri-neft sektorunda 15 faizdən çox artım qeydə alınıb.

Ölkədə qeyri-neft sektorunun inkişafı sayəsində təkcə cari ilin yanvar-mart aylarında 415,3 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 16,5, real ifadədə isə 10,9 faiz çoxdur. Bu gün Azərbaycanın ixracatında təzə meyvə, tütün, tərəvəz, meyvə-tərəvəz şirələri, pambıq lifi, emal olunmamış alüminium, pambıq ipliyi, qara metallardan hazırlanan yarımfabrikatlar, meyvə-tərəvəz konsevrləri, təbii üzüm şərabları və üzüm suslosu, polietilen kimi qeyri-neft məhsulları var. Tezliklə həmin məhsulların sırasında şprislər də olacaq. Ölkəmizin ixrac coğrafiyası da getdikcə genişlənir. İtaliya, Türkiyə, Almaniya, Çin, İspaniya, Hindistan, İsrail, Gürcüstan, Çexiya, Portuqaliya, Rusiya, Avstriya, Yunanıstan və digər ölkələrin bu gün Azərbaycandan idxal etdikləri məhsullar arasında qeyri-neft sektorunun payı kifayət qədər yüksəkdir. Bütün bunlar təsdiqləyir ki, indi Azərbaycan dünyada təkcə neft ölkəsi kimi tanınmır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Mərzili, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.












# Milli Məclis hər zaman Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətə dəstək olub

## Azərbaycana qarşı istənilən qarayaxma kampaniyasına adekvat cavab veriləcək

*Əvvəli 1-ci səh.*

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə edilən dəyişiklik isə sənədin Mülki Məcəlləyə və "Müflisləşmə və iflas haqqında" qanuna uyğunlaşdırılması məqsədi daşıyırdı.

Deputatlar dəyişikliyə müsbət münasibət bildirdilər.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Yeyinti məhsulları haqqında" və "Baytarlıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verərək bildirdi ki, dəyişikliyə əsasən yeyinti məhsulları sahəsində yeni dövlət rüsumu müəyyənləşdirilir. Qida təhlükəsiziyi sertifikatının verilməsinə və qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınmasına (reyestrdən çıxarışın verilməsinə, çıxarışın dublikatının verilməsinə və reyestr məlumatlarında fəaliyyət sahəsindən asılı olaraq dəyişikliklərin edilməsinə) görə "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulacaq.

"Baytarlıq haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, baytarlıq şəhadətnaməsinin, sertifikatının, baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsinin, heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq normalarına cavab verməsini təsdiq edən ekspertiza aktının verilməsinə və ətin, heyvan və quş cəmdəklərinin üzərinə nişan qoyulmasına görə "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilmiş məbləğdə dövət rüsumu tutulacaq. Sənədlər səsverməyə çıxarılaraq qəbul edildi.

İclasda "Toxumçuluq haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Torpaq icarəsi haqqında" və "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlər də təsdiqləndi.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxış edərək son zamanlar Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının səbəbləri barədə danışdı. Onun sözlərinə görə, bəzi xarici dairələr Azərbaycanda keçirilən islahatlara qarşı ədalətsiz şəkildə qarayaxma kampaniyası aparır, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlara təzyiq göstərməyə çalışırlar. Onlar həmin dairələrdir ki, indi də idmanı siyasətə qatırlar: "Ölkəmizin ərazi bütövlüyü ilə bağlı Brüsseldə aparılan danışıqlarda Azərbaycana təzyiqlər olur. İdman oyununu da siyasətə qatırlar. Böyük Britaniyanın ən böyük şirkəti Azərbaycanda onillərdir işləyir. Bəs necə olur ki, Azərbaycanda neft çıxaranda təhlükəli deyildi, "Arsenal" komandası gələndə təhlükəli olur? Niyə Azərbaycan dünyanın ən təhlükəsiz ölkəsi olduğu halda belə ədalətsiz fikirlər səsləndirirlər? Deyirlər ki, Azərbaycanın hava məkanında yük daşınmasında problemlər var. Azərbaycan üzərindən NATO-nun yükləri Əfqanıstana daşınanda problem olmur, ancaq iki ingilis komandası Bakıya gələndə guya təyyarə reyslərinin gediş-gəlişi vaxtında olmayacaq, hava yolunda problem yaranacaq?!"

Siyavuş Novruzovun fikrincə, "sapı özümüzdən olan baltalar"ın hərəsinə erməni lobbisi tərəfindən "5" manat verilərək Azərbaycanın həyata keçirdiyi işlərə, iqtisadi islahatlara kölgə salmağa çalışırlar. Ancaq postsovet məkanında Avropa İttifaqı ilə Azərbaycan qədər əməkdaşlıq edən ikinci ölkə yoxdur. Azərbaycanın inkişafını həzm edə bilməyən qüvvələr hər zaman belə çirkinliklərə əl atıblar: "Onlar bu qədər görülən işləri kənara qoyub, qarayaxma kampaniyası aparmağa başlayırlar. Xaricdə olan bəzi azərbaycanlılar ermənilərlə eyni sırada fəaliyyət göstərirlər. Düyməni eyni yerdən basırlar. Bütün Azərbaycan cəmiyyəti Prezidentin siyasətini dəstəkləyir. Biz ölkəmizə qarşı çirkin kampaniya aparan şəxslərə cavab verməliyik. Onlar bizi hədələməklə öz maraqlarını həyata keçirə bilməyəcəklər".

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov həmkarının fikirlərinə dəstək verərək dedi ki, bu kampaniyalar zaman-zaman həyata keçirilib. Azərbaycanda 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları keçirilərkən də eyni ssenari olub: "Azərbaycanın inkişafını gözü götürməyən qüvvələr çoxdur. Onlar hər vəchlə çalışırlar ki, hər hansı yarışma zamanı ölkəmizə qara yaxsınlar. Sözsüz ki, bunun cavabı verilməlidir. Əslində Azərbaycan öz inkişafı ilə onlara cavab verir. Bundan sonra da belə olacaq. Bu cür qarayaxma kampaniyaları bundan sonra da təkrarlanacaq. Kimin orada nə deməyindən asılı olmayaraq, karvan öz yolundadır. Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə qurulub. Biz Prezident İlham Əliyevin ətrafında sıx birləşmişik". Narahatlığa heç bir əsasın olmadığını deyən birinci vitse-spiker vurğuladı ki, hansı hücumlar olacaqsa, adekvat cavab veriləcək: "Böyük Britaniya Xarici İşlər Nazirliyi bir söz deyir, Azərbaycandakı səfirlik isə başqa söz. Bu necə ola bilər? Belə olan halda bunlara nə deyəsən? Bütün bunların səbəblərindən biri də odur ki, beynəlxalq hüquq işləmir, işləsəydi, hamı yerində olsaydı, bu biabırçılıqlar baş verməzdi. Azərbaycanın ərazi bütövlüyü ilə bağlı 4 qətnamə qəbul olunub. Amma icra olunmur. Buna baxmayaraq istədikləri məsələni bir saatın içində həll edirlər. Özü də bu, mürəkkəbi qurumamış baş verir. Bunlar açıq şəkildə deyə bilmirlər ki, Azərbaycan, sənin inkişafını istəmirik, müsəlmansan, inkişaf edə bilməzsən. Ona görə də hamımız çəkici bir yenə vurmalıyıq".

Sonra iclasda "Hesablama Palatası haqqında" qanunda dəyişiklik edilməsi haqqında layihə barədə komitə sədri Ziyad Səmədzadə məlumat verdi. Bu layihə "Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanuna uyğunlaşdırmaq məqsədilə hazırlanıb. Qeyd olunan qanuna əsasən dövlət büdcəsi zərfinə daxil olan sənədlərin və məlumatların dairəsinin genişləndirilməsi nəzərdə tutulur ki, bu məlumatlardan biri də Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar barədədir. Bu isə azadolma və güzəştlərin həcmi, effektliyi, onun məbləği barədə qiymətləndirmələrə imkan verəcək. Eyni zamanda 8.0.13-cü maddənin ləğvi nəzərdə tutulur ki, nəticədə Hesablama Palatasının inzibati xətalar haqqında işlərə baxmaq və inzibati tənbeh tətbiq etmək hüququ aradan qaldırılır. Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

"Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) geniş müzakirəyə səbəb oldu. Çünki bu dəyişikliklərə əsasən, təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsi üçün dövlət rüsumu tutulacaq. Dövlət rüsumunun məbləğləri təhsil müəssisələrinin statusundan və səviyyələrindən asılı olaraq fərqləndirilib. Məktəbəqədər təhsil müəssisələrinin akkeditasiyası üçün dövlət rüsumunun məbləği 3000, ümumi təhsil müəssisələri üçün 5000, məktəbdənkənar təhsil müəssisələri üçün 7000, peşə təhsili müəssisələri üçün 10 000, orta ixtisas müəssisələri üçün 15 000, ali təhsil müəssisələri üçün 20 000, əlavə təhsil müəssisələri üçün 15 000, təhsil fəaliyyətini həyata keçirən digər müəssisələr üçün 15 000 manat müəyyən edilib.

Deputatlar ümumtəhsil müəssisələrinin akkreditasiyası ilə bağlı müəyyən edilən dövlət rüsumunun ləğv edilməsini istədilər. Qüdrət Həsənquliyev, Əflatun Amaşov, Asim Mollazadə, Musa Quliyev, Qənirə Paşayeva, Məlahət İbrahimqızı çıxış edərək bildirdilər ki, bu, dövlət siyasətinə və son illərdə həyata keçirilən sosial-iqtisadi islahatlara uyğun deyil. Ona görə də sənədə düzəlişlər edilməlidir.

Deputatların iradlarına münasibət bildirən parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli bildirdi ki, əvvəllər akkreditasiya 5 ildə bir dəfə keçirilib. Komitə sədri təklif edib ki, dövlət deyil, özəl təhsil müəssisələrinin akkreditasiyadan keçirilməsi məqsədəuyğun olar: "Deputatların narazılığı rüsumların miqdarı ilə əlaqədardır, akkreditasiyanın keçirilməsi ilə bağlı deyil. Əgər deputatlar rüsumların məbləğindən narazıdırsa, biz qanun layihəsini yenidən Təhsil Nazirliyi ilə birgə müzakirə edib, baxa bilərik". Sənəd səsverməyə çıxarılaraq qəbul olundu.

"Dövlət rüsumu haqqında" qanuna edilən dəyişikliyə əsasən dövlət məktəbəqədər təhsil müəssisələri və ümumtəhsil müəssisələrinə lisenziya verilməsinə görə rüsum alınmayacaq. Qeyd edək ki, hazırda qüvvədə olan qanun layihəsinə görə, məktəbəqədər təhsil müəssisələri lisenziya verilməsinə görə 1250 manat, ümumi təhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) isə 10000 manat dövlət rüsumu ödəməlidir. Qanun layihəsinə edilən dəyişiklik qəbul edildi.

İclasda həmçinin Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Yol hərəkəti haqqında", "Milli arxiv fondu haqqında", "Avtomobil yolları haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihə də (birinci oxunuş) təsdiqləndi. "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə və "Texniki tənzimləmə haqqında" qanun layihələri ikinci oxunuşda müzakirəyə çıxarılaraq qəbul edildi və bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV, Fərman BAĞIROV (foto), "Azərbaycan"***

# Rusiyanın çoxsaylı regionlarında müxtəlif layihələr reallaşdıran Heydər Əliyev Fondu Həştərxan vilayətinin əsl dostudur

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Həştərxanda bir sıra tədbirlər keçirilib






Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Həştərxan vilayətinə rəsmi səfərə gəlib.

Həştərxan şəhərinin beynəlxalq aeroportunda Azərbaycan nümayəndə heyətini Həştərxan vilayəti qubernatorunun səlahiyyətlərini müvəqqəti icra edən Sergey Morozov və digər rəsmi şəxslər qarşılayıblar. Ənənəyə görə qonaqları duz-çörəklə qarşılayıblar.

Sonra Azərbaycan və Həştərxan nümayəndə heyətləri ümummilli lider Heydər Əliyevin Həştərxan şəhərinin mərkəzində onun adını daşıyan parkda ucaldılmış abidəsi önünə tər güllər düzüblər.

Heydər Əliyev adına parkda hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə rəmzi ağacəkmə aksiyası keçirilib.

Daha sonra Həştərxan vilayəti administrasiyasında Azərbaycan və Həştərxan nümayəndə heyətlərinin görüşü olub. Görüşdə ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edilib, qarşılıqlı əməkdaşlığı genişləndirməyin və dərinləşdirməyin vacibliyi vurğulanıb.

Görüşdən sonra Əli Həsənov və Sergey Morozov Azərbaycan və Rusiya KİV nümayəndələrinin suallarını cavablandırıblar.

Əli Həsənov jurnalistlərlə söhbətində deyib ki, Həştərxan vilayəti qubernatoru səlahiyyətlərini icra edən Sergey Morozovla görüşdə ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edilib. Prezidentin köməkçisi deyib: "Biz regional əməkdaşlığı dərinləşdirəcək, genişləndirəcək və inkişaf etdirəcəyik. Bu, həm Həştərxan vilayətinin sakinləri, həm də Azərbaycan əhalisi üçün vacibdir. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri bizim qarşılıqlı tərəfdaşlıq münasibətlərimizin strateji istiqamətlərini müəyyən ediblər. Həştərxan vilayətinin və Azərbaycan Respublikasının rəhbərləri bu planları ən qısa müddətdə həyata keçirməyə çalışacaqlar".

Qubernator səlahiyyətlərini icra edən Sergey Morozov vurğulayıb ki, Həştərxan vilayəti Azərbaycan ilə qarşılıqlı fəaliyyət üzrə böyük işlər planlaşdırır. S.Morozov deyib: "Bugünkü görüşümüz ümumi niyyətlərə yönəlmiş daha bir addımdır. Görüş yüksək səviyyədə keçdi və biz bundan sonra da ikitərəfli münasibətlərin inkişafını davam etdirəcəyik".

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Azərbaycan İşgüzar Mərkəzində olub, orada Heydər Əliyev Fondunun və fondun vitse-prezidenti Leyla Əliyevanın adından Həştərxan şəhərindəki uşaq evlərində tərbiyə alan bir qrup uşağa ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə xatirə hədiyyələri təqdim edilib. Uşaqlar onlara göstərilən diqqət və qayğıya görə Heydər Əliyev Fonduna təşəkkür ediblər. Hədiyyələrin təqdim edilməsi mərasimindən sonra uşaq evlərində tərbiyə alanlar və onların müəllimləri Azərbaycan İşgüzar Mərkəzinin binası qarşısında Azərbaycanın üçrəngli bayrağı rəngində olan şarları səmaya buraxıblar. Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Sonra Azərbaycan nümayəndə heyəti Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbinə gəlib. Burada təhsil müəssisəsinin foyesində Azərbaycan xalqının ümummilli liderinin büstü önünə tər çiçəklər qoyulub. Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə ulu öndərin adını daşıyan və 8 il bundan əvvəl fondun təşəbbüsü ilə əsaslı təmir edilmiş məktəbdə şagirdlər tərəfindən bədii konsert proqramı təqdim olunub.

Tədbir çərçivəsində təhsildə fərqlənən şagirdlərə və onların müəllimlərinə Heydər Əliyev Fondu adından hədiyyələr təqdim edilməsi mərasimi keçirilib. Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, vitse-prezident, fondun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevaya fondun çoxşaxəli fəaliyyətinə görə təşəkkür ifadə edilib.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, habelə fondun həm ölkəmizdə, həm də Azərbaycan hüdudlarından kənarda həyata keçirdiyi irimiqyaslı layihələr barədə məlumat verib. Qeyd edilib ki, Rusiyanın çoxsaylı regionlarında müxtəlif layihələr reallaşdıran fond Həştərxan vilayətinin əsl dostudur.

Həştərxan vilayətinin beynəlxalq və xarici iqtisadi əlaqələr naziri səlahiyyətlərini icra edən Denis Afanasyev, Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbinin direktoru Tatyana Tixomirova, Heydər Əliyev Fondunun və şəxsən fondun prezidenti Mehriban Əliyevanın Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərini qeyd ediblər.

Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində Həştərxan vilayəti ərazisində yaradılmış Azərbaycanın "KDY Logistics" şirkətinin logistik habı ilə də tanış olub. Bu şirkət "bir pəncərə" prinsipi üzrə gömrük və fitosanitar nəzarətin həyata keçirilməsini, həm Azərbaycandan, həm də başqa ölkələrdən kənd təsərrüfatı məhsullarının qəbulunu, saxlanılmasını və göndərilməsini təmin edir. Hab ilə tanışlıq zamanı Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov Həştərxan vilayəti gömrük xidmətinin, "Rospotrebnadzor"un, "Rusiya Dəmir Yolları" ASC-nin Volqaboyu dəmiryol struktur bölməsinin Həştərxan şöbəsinin və digər əlaqədar strukturların rəhbərləri ilə fikir mübadiləsi aparıb.

Bununla da Azərbaycan nümayəndə heyətinin Həştərxan vilayətinə səfəri başa çatıb.

***AZƏRTAC***

# Miqrasiya Məcəlləsi təkmilləşdirilir

Mayın 17-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirildi. Komitənin sədri Əli Hüseynli gündəlikdə iki məsələnin olduğunu bildirdi. Əvvəlcə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqında" sazişin təsdiq edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarıldı. Qeyd edildi ki, bu saziş tərəflərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün müasir dünyanın çağırış və təhdidlərinə cavab verən yüksəksəviyyəli kadr hazırlığının təmin edilməsinə xidmət edəcək.

Saziş layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

Sonra Əli Hüseynli "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" (birinci oxunuş) qanun layihəsini müzakirəyə təqdim etdi. Komitə sədri bildirdi ki, ölkəmizdə turizm sürətlə inkişaf edir, mütəmadi olaraq beynəlxalq tədbirlər keçirilir. Belə bir şəraitdə Miqrasiya Məcəlləsinin təkmilləşdirilməsi də gündəlikdə dayanır.

Layihə barədə məlumat verən Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi Vahid Qəhrəmanov bildirdi ki, məcəllənin qəbul edildiyi 2013-cü ildən indiyədək ona bir neçə dəfə dəyişiklik edilib. Hazırda təklif olunan dəyişikliklər isə 6 istiqamət üzrədir və əsasən əcnəbilərin olduğu yer üzrə qeydiyyat, viza proseduru, müvəqqəti yaşama icazəsi və digər məsələləri əhatə edir. Bu dəyişikliklərdə müəyyən olunmuş bir sıra prosedur müddətlərinin azaldılması və ölkəmizə gələn əcnəbilər üçün daha əlverişli miqrasiya şərtlərinin təmin olunması öz əksini tapır. Dəyişikliklərdə viza prosedurunun sadələşdirilməsi və ölkəmizdə müvəqqəti yaşamağa icazə verən 13 halın 16-ya qaldırılması məsələləri əhatə olunur.

Müzakirələr zamanı çıxış edən komitə üzvləri Miqrasiya Məcəlləsinə təklif olunan dəyişiklikləri yüksək qiymətləndirdilər, təkliflərini verdilər. Müzakirələrin sonunda Miqrasiya Məcəlləsinə təklif olunan dəyişikliklər birinci oxunuşda Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan ilə Fransa arasında əməkdaşlığın inkişafı üçün geniş potensial mövcuddur

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Fransaya işgüzar səfəri çərçivəsində bu ölkənin Prezidentinin diplomatik məsələlər üzrə müşaviri Filip Etiyen ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüş zamanı tərəflər Azərbaycan və Fransa arasında ikitərəfli münasibətlərin cari vəziyyəti ilə bağlı fikir mübadiləsi aparıblar. Əməkdaşlığın inkişafından məmnunluqlarını bildirən tərəflər əlaqələrin daha da inkişafında qarşılıqlı yüksəksəviyyəli səfər mübadiləsinin intensivləşdirilməsinin zəruriliyini vurğulayıblar.

Nazir Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə aparılan danışıqların cari vəziyyəti haqqında qarşı tərəfə məlumat verib. Münaqişənin tezliklə həllinin, Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsinin və azərbaycanlı məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri qayıtmasının bölgədə davamlı sülh və inkişafın təmin olunması baxımından əhəmiyyəti vurğulanıb.

Görüş zamanı tərəflər beynəlxalq gündəliyin qarşılıqlı maraq doğuran məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Fransaya işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Jan-İv Lö Drian ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüş zamanı nazirlər Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, ticarət, humanitar və digər sahələrdə əməkdaşlıq imkanlarını müzakirə edib, ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün geniş potensialın mövcud olduğunu bildiriblər.

Tərəflər münasibətlərin daha da dərinləşdirilməsinin və bu xüsusda yüksəksəviyyəli qarşılıqlı səfər mübadiləsinin intensivləşdirilməsinin zəruriliyini vurğulayıblar.

Nazir Elmar Məmmədyarov fransalı həmkarı ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə aparılan danışıqlar prosesinin hazırkı durumuna dair fikir mübadiləsi aparıb. Nazir Jan-İv Lö Drian həmsədr ölkə kimi Fransanın münaqişənin sülh yolu ilə həlli üçün vasitəçilik səylərini əsirgəməyəcəyini bildirib.

Həmçinin nazirlər Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının 10 illiyinə həsr olunmuş Brüssel Sammitinin nəticələri və Aİ ilə Azərbaycan arasında yeni strateji əhəmiyyətli tərəfdaşlıq sazişi ilə bağlı fikir mübadiləsi aparıblar.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlərlə bağlı müzakirələr aparılıb.

***AZƏRTAC***

# Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm işlər görülür






Mayın 17-də II Bakı Beynəlxalq Qida Təhlükəsizliyi Konfransı keçirilib. Konfrans Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi "WorldFood Azerbaijan 2019" sərgisi çərçivəsində təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən AQTA-nın sədri Qoşqar Təhməzli konfransın keçirilməsində əsas məqsədlərdən birinin qida təhlükəsizliyi sahəsində xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək, onların Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsinə töhfə verə biləcək layihələrini səmərəli şəkildə əlaqələndirmək, həyata keçirmək və bu istiqamətdə mütəmadi olaraq fikir mübadiləsi aparmaqdan ibarət olduğunu qeyd edib. Agentliyin sədri bildirib ki, AQTA bu sahədə beynəlxalq təşkilatlarla hər cür əməkdaşlığa və birgə fəaliyyətə hazırdır. Qoşqar Təhməzli, ölkəmizdə ərzaq təhlükəsizliyinin təminatı sahəsində atılan addımlar barədə məlumat verərək deyib: "Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm işlər görülür. Ölkə başçısı bu il aprelin 29-da "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Qida təhlükəsizliyi mərhələli şəkildə həyata keçirilən prosesdir. Təsdiq olunmuş yeddiillik proqram yaxın zamanlarda mərhələli şəkildə həyata keçiriləcək".

Q.Təhməzli rəhbərlik etdiyi qurumun müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Agentliyin sədri II Bakı Beynəlxalq Qida Təhlükəsizliyi Konfransının ölkəmizin etibarlı tərəfdaş kimi beynəlxalq təşkilatlarla əməkdaşlığını daha da genişləndirəcəyini, kənd təsərrüfatı və qida sənayesi sektorları üzrə ixracatın inkişafına mühüm töhfə verəcəyini, daxili və beynəlxalq bazarlarda istehlakçıların ehtiyaclarına cavab verən yüksəkkeyfiyyətli və təhlükəsiz məhsulların istehsalına kömək edəcəyini də xüsusi vurğulayıb.

Azərbaycan Respublikası baş nazirinin müavini Əli Əhmədov dünya əhalisinin sürətlə artdığını və insanların tələbatlarını ödəmək üçün resursların azaldığını deyib: "İnsanların tələbatlarının ödənilməsi üçün qidanın yeni üsullarla istehsalına ehtiyac yaranıb. Bu zaman qidanın, ərzaq məhsullarının keyfiyyəti, tərkibi, insan sağlamlığı üçün təhlükəsiz olması məsələsi ön plana çıxır. Hazırda qida təhlükəsizliyi problemi bəşəriyyət üçün vacibdir. Qida təhlükəsizliyi probleminin həlli üçün bundan sonra səylər daha da artırılacaq. Ona görə də hər bir ölkə öz strategiyasını və konsepsiyasını müəyyənləşdirməli və həyata keçirmək haqqında düşünməlidir. Azərbaycan dünyada ən çox islahat aparan ölkələrdən biridir. Ölkəmizdə həyata keçirilən islahatlar içərisində qida təhlükəsizliyi ilə əlaqədar müəyyənləşdirilmiş konsepsiya ayrıca qeyd olunmalıdır. İslahatlar çərçivəsində həyata keçirilmiş mühüm işlərdən biri də qida təhlükəsizliyinin təkmilləşdirilməsi, müasir standartlara uyğunlaşdırılması əhalinin sağlam və təhlükəsiz qida ilə təminatına və kənd təsərrüfatı məhsullarının ayrı-ayrı ölkələrə ixracına töhfə verilməsindən ibarətdir. Onu da qeyd edim ki, ölkəmizdə kifayət qədər münbit torpaqların bir qismi işğal altındadır. Bu o deməkdir ki, kənd təsərrüfatına yararlı torpaqların potensialı 20 faiz azalıb.

Ölkəmizdə daxili istehsal nəticəsində əldə edilən qida məhsulları ilə yanaşı, idxal edilən məhsulların da müvafiq standartlara uyğunlaşdırılması sağlam qida təminatına imkan yaradacaq. Azərbaycan qida təhlükəsizliyi sahəsində öz üzərinə düşən vəzifələri dərk edir. Ümid edirəm ki, həyata keçirilən tədbirlər və atılacaq addımlar nəticəsində əhalinin sağlam qida ilə təminatı bütövlükdə öz həllini tapacaq".

Baş nazirin müavini tədbirin qida təhlükəsizliyi sahəsində ciddi müzakirə və fikir mübadiləsinə imkan verəcəyini bildirib və konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov qida təhlükəsizliyinin beynəlxalq dialoqların əsas müzakirə mövzusu olduğunu bildirib. İnam Kərimov qeyd edib ki, araşdırmalara görə, qidanın insan sağlamlığına mənfi təsiri iqtisadiyyata zərər vurur: "Qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi həm sosial, həm də iqtisadi inkişaf baxımından əhəmiyyətə malikdir. O həm də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq şərtlərindən biridir. Qlobal inkişafın bütün mərhələlərini innovasiyasız təsəvvür etmək mümkün deyil. Təhlükəsiz qidanın istehsalı üçün innovativ texnologiyaların tətbiqi vacibdir. Onu da qeyd edim ki, qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi nəticəsində ölkəmizdə kənd təsərrüfatı və ərzaq sənayesi məhsullarının keyfiyyət göstəriciləri yüksəlib. Kənd Təsərrüfatı Nazirliyi qida təhlükəsizliyinin təmin edilməsində maraqlı tərəflərdən biridir. Bu sahədə nazirliyin üzərinə vəzifələr düşür və müvafiq tədbirlər həyata keçirilir".

Sonra çıxış edən Avropa İttifaqının Sağlamlıq və Qida Təhlükəsizliyi üzrə Baş Direktoratlığının siyasət məmuru Janr Bloumendal, Gürcüstanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Mühafizəsi Nazirliyi yanında Gürcüstan Milli Qida Agentliyinin rəhbəri Zurab Çekuraşvili, Türkiyə Cümhuriyyətinin Heyvandarlıq və Meşəçilik Nazirliyinin Qida və Nəzarət Müdirliyinin rəhbəri Mümtaz Sinan, Serbiya Respublikasının Kənd Təsərrüfatı, Meşə və Su Resurslarının İdarəedilməsi Nazirliyinin dövlət katibi Senad Mahmudoviç, Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Nəzarəti Komitəsinin sədri Arman Utequlov, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycan üzrə missiyasının direktoru Jaidev Jay Sinq Azərbaycanda qida təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işləri yüksək qiymətləndirib, təmsil etdiyi ölkə və qurumların bu sahədə həyata keçirdiyi tədbirlərdən danışıblar.

AQTA-nın sədr müavini Elxan Mikayılov ölkəmizdə qida təhlükəsizliyi sahəsində həyata keçirilən islahatlara dair məruzə ilə çıxış edib.

Sonra Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, ABŞ-ın Merilend Universiteti və ABŞ-Azərbaycan Ticarət Palatası, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu və Türk Standartlar İnstitutu, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu və Türkiyə Akkreditasiya Qurumu arasında anlaşma memorandumları imzalanıb. Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin sədri Sadiq Məmmədov, ABŞ-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurasının həmsədri Reza Vəziri, ABŞ-ın Merilend Universitetinin Beynəlxalq Proqramlar rəhbəri Çengi Vei, Türk Standartlar İnstitutunun rəhbəri Adem Şahin, Türkiyə Akkreditasiya Qurumunun rəhbəri Orbay Evrensevdi çıxış edərək memorandumun qida təhlükəsizliyi sahəsində imkanları genişləndirəcəyini deyiblər.

Konfrans sessiyalarla davam etdirilib. Sessiyalar zamanı "Kodeks Alimentarius" standartları, yerli qanunvericilik və beynəlxalq harmonizasiya, risklərə əsaslanan idxal qaydaları, HACCP sisteminin tətbiqi və qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin vəzifələri, qida təhlükəsizliyinin təmin olunmasında heyvanların identifikasiya sistemi və izlənilməsi mövzularında məruzələr dinlənilib və müzakirələr aparılıb.

# Çex Respublikası Parlamentinin Deputatlar Palatasının nümayəndələri Azərbaycan Milli Aviasiya Akademiyasında olublar

Ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyəti mayın 17-də Azərbaycan Milli Aviasiya Akademiyasında olub. AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə akademiyanın Pilotların Hazırlığı Mərkəzi ilə tanış olublar. Sonra Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev Çexiya nümayəndə heyəti ilə görüşüb.





Azərbaycan-Çexiya əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən rektor Arif Paşayev Azərbaycan aviasiyası barədə qonaqlara məlumat verib.

Ölkəmizin Çexiya ilə əlaqələrə önəm verdiyini, iki ölkə arasında əməkdaşlığın inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı əldə edilmiş razılaşmaların əhəmiyyətini vurğulayan Arif Paşayev bildirib ki, Azərbaycan və Çexiya siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. İki ölkə arasında mövcud əməkdaşlığın yüksək inkişaf potensialı olduğunu vurğulayan akademik mülki aviasiya sahəsində də geniş imkanların olduğunu deyib.

Arif Paşayev Milli Aviasiya Akademiyası, "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti və Heydər Əliyev Beynəlxalq Aeroportu barədə qonaqlara məlumat verərək bildirib ki, 2018-ci ildə Azərbaycan mülki aviasiyasının 80 illik yubileyi təntənəli qeyd olunub. Hazırda AZAL postsovet məkanında mülki aviasiya sahəsində aparıcı aktorlardan birinə çevrilib, beynəlxalq aviasiya birliyinin üzvü olub. 2014-cü ildə Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni müasir terminalı istifadəyə verilib. Aeroport bu yaxınlarda nüfuzlu "Skytrax" auditor şirkətinin ən yüksək "5 Ulduz" qiymətinə layiq görülüb. Bu ən yüksək qiymət Heydər Əliyev Beynəlxalq Aeroportundan başqa cəmi 8 aeroporta verilib. AZAL isə qısa müddət ərzində geniş füzelyajlı "Boeing", "Airbus", "Embraer" kimi ən müasir təyyarələrin, Qərbdə istehsal olunmuş helikopterlərin istismarına başlayıb. 2017-ci ildə aşağı büdcəli "Buta Airways" aviaşirkəti yaradılıb.

Pilotların Hazırlığı Mərkəzi barədə danışan rektor buranın MDB məkanında ən böyük tədris mərkəzi olduğunu vurğulayıb. O, mərkəzdə hazırkı pilotların gələcək pilotlara dərs keçdiyini bildirib. Akademik, həmçinin mərkəzdə Rusiya, Özbəkistan və digər ölkələrdən pilotların təcrübə keçdiyini də diqqətə çatdırıb.

Rektor Azərbaycanın Çex Respublikasının mülki aviasiya sistemində mövcud bir sıra mülki və hərbi təyyarələrlə maraqlandığını bildirib.

Ölkəmizdə olmaqdan məmnunluğunu ifadə edən Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri R.Vondraçek akademik Arif Paşayevi Çexiyaya səfərə dəvət edib.

"İki gün ərzində biz bir sıra görüşlər keçirdik, Azərbaycanın bir sıra sahələrdəki təcrübəsi ilə yaxından tanış olduq. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşümüz çox səmərəli keçdi. Azərbaycan Prezidenti də vurğuladı ki, bizim ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivləri mövcuddur. Nümayəndə heyətinin Azərbaycana səfərinin məqsədi ölkələrimiz arasında mövcud olan çox yaxşı münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verməkdir".

R.Vondraçek Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatların təqdir edildiyini, çex investorları tərəfindən ölkəmizə böyük maraq olduğunu diqqətə çatdırıb.

Çexiya mülki aviasiyası barədə məlumat verən qonaq bir sıra mülki və hərbi təyyarələrin istehsalı, istismarı və təmiri, eləcə də aviasiya vasitələrinin modernləşdirilməsi və yenilənməsi, texniki baxımdan yerli şəraitə uyğunlaşdırılmış müasir təyyarələr barədə danışıb.

Görüşdə Azərbaycanla Çexiya arasında aviasiya sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, Bakı-Praqa-Bakı marşrutu üzrə aviareyslərin sayının artırılması və ikitərəfli təcrübə mübadiləsinə dair geniş fikir mübadiləsi aparılıb.

# Avropa Şurasının Nazirlər Komitəsi bütün üzv dövlətlərin müstəqilliyinə və ərazi bütövlüyünə dəstəyini təsdiq edib

Mayın 17-də Finlandiyanın paytaxtı Helsinki şəhərində Avropa Şurası Nazirlər Komitəsinin 129-cu sessiyası keçirilib. Finlandiyanın Nazirlər Komitəsinə altı aylıq sədrliyinə yekun vuran bu toplantıda ölkəmizi Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev təmsil edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Avropa Şurasının təsis edilməsinin 70-ci ildönümünün qeyd olunduğu bu nazirlər sessiyasında təşkilatın üzləşdiyi təhdidlər, mümkün islahatlar və gələcək fəaliyyət istiqamətləri müzakirə olunub. Toplantıda çıxış edən nazir müavini Mahmud Məmməd-Quliyev əvvəlcə Avropa Şurası ilə aparılan əməkdaşlığa toxunub və bir müddət öncə təsdiq olunmuş Avropa Şurasının Azərbaycan üzrə növbəti Fəaliyyət Planının icrasından bəhs edib. O, bundan əlavə, Avropa qitəsində mövcud münaqişə zonalarına beynəlxalq təsisatların girişinə dair Azərbaycanın prinsipial mövqeyini xatırladıb və bu zonalarla bağlı mümkün fəaliyyətlərin öncədən legitim mərkəzi hakimiyyət dairələri ilə razılaşdırılmalı olduğunu bəyan edib. Nazir müavini Azərbaycan torpaqlarının Ermənistan tərəfindən davam edən hərbi işğalının nəticəsi olaraq yaranmış vəziyyətə istinad edib və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci ildə çıxardığı önəmli hökmdə bu ölkənin Azərbaycanın işğal olunmuş əraziləri üzərində effektiv nəzarəti həyata keçirdiyi barədə gəldiyi qənaəti vurğulayıb.

Qeyd olunmalıdır ki, Avropa Şurası Nazirlər Komitəsi üzv dövlətlərindəki münaqişələri diqqətdən kənar qoymayıb. Belə ki, sessiyanın nəticəsi olaraq qəbul edilmiş siyasi bəyanatda Avropa qitəsinin bəzi hissələrinin məruz qaldığı qarşıdurma və davam edən münaqişələrə görə narahatlıq ifadə edilib və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, barışıq və siyasi həll üçün birgə səylərin göstərilməli olduğu açıqlanıb. Daha önəmlisi isə, üzv dövlətlərin hüquq və öhdəlikləri barədə müvafiq qərarda Avropa Şurası Nazirlər Komitəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlər çərçivəsində bütün üzv dövlətlərin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəyini təsdiq edib.

Helsinkidəki sessiyanın ardınca Finlandiyanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyinə yekun vurulub və sədrlik növbəti altı ay üçün Fransaya keçib.

# Bakıda Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının IV iclası keçirilib

## İndiyədək ABŞ Azərbaycana 13,6 milyard dollar, ölkəmiz isə Birləşmiş Ştatlara 8,2 milyard dollardan çox investisiya yatırıb

Mayın 17-də Bakıda Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının IV iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda maliyyə naziri Samir Şərifov Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının ölkələrimiz arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın gücləndirilməsi baxımından bütöv institusional çərçivə olduğunu deyib.

"Məmnunluqla qeyd edərdim ki, 7 illik fasilədən sonra bu iclasın keçirilməsi ilə komissiya öz fəaliyyətini bərpa edib. Komissiyanın bugünkü iclasının razılaşdırılmış gündəliyində duran əsas müzakirə mövzuları iki ölkə arasında investisiya münasibətləri, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, əqli mülkiyyət hüquqları, turizm sahəsində əməkdaşlıq, Azərbaycanın nəqliyyat, logistika və tranzit imkanları kimi sahələri əhatə edir. Azərbaycan ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. 2018-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 860 milyon dollar olub. Bunun 530 milyon dolları ABŞ-a ixracın, 330 milyon dolları isə ölkəmizə idxalın hesabına formalaşıb. Bu vaxtadək ABŞ Azərbaycana 13,6 milyard dollar birbaşa, ölkəmiz isə Birləşmiş Ştatlara 8,2 milyard dollardan çox portfel investisiyası yatırıb. Hesab edirik ki, bu göstəricilər bizim iqtisadi sahədə əməkdaşlığımızın potensialını tam əks etdirmir. Bu rəqəmlər daha yüksək ola bilər", - deyə nazir bildirib.

"Əminliklə deyə bilərik ki, Azərbaycan iqtisadiyyatı dayanıqlılıq nümayiş etdirib, ölkəmizdə əlverişli biznes mühitinin yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib və onlar ilk nəticələrini verməkdədir. Bu isə xarici investorlar üçün cəlbedicidir", - deyə S.Şərifov vurğulayıb.

Nazir bildirib ki, Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub. Hesabatda Azərbaycanın mövqeyi 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə, MDB ölkələri arasında lider mövqeyə yüksəlib. Bütün bunlarla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı hökumətin əsas uzunmüddətli hədəfidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər milli iqtisadiyyatın daha da inkişafını hədəfləyən mühüm islahatlar həyata keçirilməkdədir.

"Təəssüf hissi ilə bildirmək istərdim ki, Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığına kölgə salan bir sıra məsələlər də mövcuddur. Bu baxımdan, ilk növbədə, 1992-ci ildə ABŞ Konqresi tərəfindən qəbul olunmuş və ölkəmizə qarşı ədalətsiz mövqe nümayiş etdirən birbaşa dövlət yardımlarının göstərilməsini qadağan edən "Azadlığa Dəstək Aktı"na edilmiş 907-ci düzəlişin tamamilə ləğvinin əlaqələrimizin daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə inanırıq. Ümidvarıq ki, ABŞ hökuməti bu istiqamətdə, yəni həmin düzəlişin aradan qaldırılması istiqamətində müvafiq addımların atılmasını təmin edəcək", - deyə nazir vurğulayıb.

Azərbaycan ilə Birləşmiş Ştatlar arasında enerji sahəsində güclü tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu deyən ABŞ Dövlət Katibinin İqtisadiyyat və Biznes Məsələləri üzrə köməkçisinin birinci müavini Peter Haas bildirib: "Ümid edirik ki, bu əməkdaşlıq qeyri-neft sektoru üzrə sahələri də əhatə edəcək. Bu da ABŞ-Azərbaycan münasibətlərini daha da möhkəmləndirəcək".

P.Haas Azərbaycan və ABŞ-ın güclü etibarlı tərəfdaşlar olduğunu qeyd edib. O, iki ölkə arasında enerji təhlükəsizliyi, sərhəd təhlükəsizliyi və digər sahələrdə mövcud olan güclü tərəfdaşlığı yüksək qiymətləndirib. P.Haas iqtisadi tərəfdaşlığın ikitərəfli münasibətlərdə inkişaf etdirilməli olan vacib sahələrdən biri olduğunu deyib.

Azərbaycanla ABŞ arasında 2012-ci ildən bəri belə formatda görüşün keçirilmədiyini qeyd edən Birləşmiş Ştatların ölkəmizdəki səfiri Li Litzenberqer bu dialoqun müntəzəm xarakter alacağına ümidvar olduğunu bildirib: "Birgə əməkdaşlıq edərək ikitərəfli ticarət və iqtisadi əlaqələr baxımından göstəriciləri daha da artıra bilərik".

"ABŞ ilk gündən Azərbaycanın dostu və tərəfdaşı olub. Biz ölkənizin müstəqilliyinə və suverenliyinə dəstək verərək Azərbaycanın iqtisadiyyatını genişləndirmək və şaxələndirmək, eləcə də iqtisadi inkişafı təşviq etmək istiqamətində Azərbaycan xalqı ilə çiyin-çiyinə dayanmışıq", - deyə diplomat bildirib.

Səfir qeyd edib ki, bu gün ABŞ və Azərbaycanın mövcud güclü ikitərəfli əlaqələrini növbəti səviyyəyə yüksəltmək və daha sıx iqtisadi əlaqələr qurmaq üçün gözəl imkanları var. O, "Cənub qaz dəhlizi"nin təkcə Azərbaycan üçün deyil, Avropanın enerji təhlükəsizliyini təmin etmək baxımından əhəmiyyətli layihə olduğunu qeyd edib.

L.Litzenberqer Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Limanı kimi yeni infrastruktur layihələrini yüksək qiymətləndirib. O, belə layihələrin yeni regional bağlılıq yaratdığını və Azərbaycanın iqtisadi inkişafı üçün böyük imkanlar açdığını bildirib.

Səfir Azərbaycanın çox qısa müddət ərzində həyata keçirdiyi islahatların artıq uğurlu nəticələr verdiyini də vurğulayıb: "ABŞ şirkətləri xüsusilə gömrük və vergi islahatları barədə öz müsbət rəylərini bildiriblər".

İclasda Azərbaycan və Birləşmiş Ştatlar arasında iqtisadi tərəfdaşlığın mövcud vəziyyəti, komissiyanın 3-cü iclasından sonrakı dövrdə görülmüş işlər və əlaqələrin genişləndirilməsi perspektivləri nəzərdən keçirilib.

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mayın 17-də iqtisadiyyat naziri Şahin Mustafayev Tovuzda Şəmkir və Tovuz rayonlarından olan vətəndaşları qəbul edib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin gün iqtisadiyyat nazirinin müavinləri Niyazi Səfərov Ağstafada Qazax və Ağstafa, Sahib Məmmədov isə Gədəbəy rayonlarından olan vətəndaşları qəbul ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbullarda vətəndaşlar diqqətlə dinlənilib, qaldırılan məsələlərin böyük əksəriyyəti yerindəcə həll edilib, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbullara gələn vətəndaşlar sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin verilməsi, istehsal, emal və xidmət müəssisələrinin yaradılması və yenidən qurulması, kənd təsərrüfatı texnikasının alınmasına, məhsul satışına və ixracına, o cümlədən əlil sahibkarların istehsal etdikləri məhsulların satışına dəstək göstərilməsi, sahibkarların mülkiyyət hüququ, sosial və sair məsələlərlə bağlı müraciət ediblər.

* * *

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Astara rayonunda vətəndaşları fərdi qaydada qəbul edib.

Vətəndaşlar əsasən sosial təminat, məşğulluq, aktiv məşğulluq tədbirlərinə və özünüməşğulluq proqramına cəlbolunma, tibbi-sosial reabilitasiya, əmək hüquqlarının müdafiəsi və s. məsələlərlə bağlı müraciət ediblər.

Qəbul zamanı müraciətlərin bir qismi sorğu xarakterli olub və qanunvericiliyə uyğun izahatlar verilib. Bir sıra vətəndaşların müraciətlərə uyğun olaraq onlara vakant iş yerlərinə göndərişlər verilib. Ayrı-ayrı şəxslər özünüməşğulluq proqramına və peşə hazırlığına, reabilitasiya xidmətlərinə cəlb edilmələri, həmçinin reabilitasiya vasitələri ilə təmin edilmələri üçün qeydiyyata alınıblar. Digər müraciətlərdə qaldırılan məsələlər nazirliyin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə yerindəcə araşdırılıb.

Həmçinin əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinləri Mətin Kərimli Lənkəran rayonunda, Anar Kərimov isə Masallı rayonunda vətəndaşları fərdi qaydada qəbul ediblər. Vətəndaşların müraciətlərində əksini tapan məsələlərin həlli ilə bağlı müvafiq tədbirlər görülüb. Eləcə də vətəndaşların sosial təminat növlərinə hüququn müəyyən olunması, əlilliyin qiymətləndirilməsi, reabilitasiya, məşğulluq xidmətləri və s. barədə sorğuları cavablandırılıb, ayrı-ayrı müraciətlər araşdırılmaq üçün qeydiyyata alınıb.

* * *

Ali Məhkəmənin mətbuat xidmətindən bildiriblər ki, bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 17-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Gəncə şəhərində, Cinayət kollegiyasının sədri Şahin Yusifov Samuxda, İnzibati-İqtisadi kollegiyanın sədri Hikmət Mirzəyev isə Göygöl rayonunda vətəndaşların qəbulunu keçiriblər.

Qəbullar zamanı məhkəmələrin fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə Ali Məhkəmənin Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***AZƏRTAC***

# BDU-da Himayəçilər Şurasının ilk iclası



Bakı Dövlət Universitetinin (BDU) Himayəçilər Şurasının ilk iclası keçirilib. İclasda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva və şura üzvləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, təhsil naziri Ceyhun Bayramov elm və təhsilin inkişaf etdirilməsi, milli təhsilin nüfuzunun yüksəldilməsi, ona əlavə dəstək verilməsi məqsədilə yaradılan Himayəçilər Şurasının fəaliyyət istiqamətləri barədə məlumat verib.

Ceyhun Bayramov universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı olan və ali təhsil müəssisəsinin inkişafına yardım edən Himayəçilər Şurasının ictimai əsaslarla fəaliyyət göstərdiyini bildirib. Nazir qeyd edib ki, Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə və nizamnamə ilə müəyyən edilir.

Nazir bu təhsil müəssisəsində tədris-metodik işlərin həyata keçirilməsi üçün Himayəçilər Şurası tərəfindən Elmi-Metodik Şura yaradılacağını diqqətə çatdırıb. Bu şuranın yaradılma qaydası və səlahiyyətləri Himayəçilər Şurasının təsdiq etdiyi əsasnamə ilə müəyyən olunur.

İclasda Himayəçilər Şurasının üzvləri gələcək fəaliyyətə dair fikirlərini bildirib və təkliflərlə çıxış ediblər.

Sonra BDU-nun rektoru Elçin Babayev universitetin 100 illik yubileyinin keçirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Himayəçilər Şurası universitetin qanuni fəaliyyətinin həyata keçirilməsinə, ali təhsil müəssisəsinin inkişafına mane olan aktual problemləri həll etməyə kömək göstərəcək. Bundan başqa, universitetdə təhsil xidmətlərinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi, universitetin tədqiqat və təhsil, mədəni və intellektual mərkəz kimi inkişafına dəstək verilməsi, ali təhsil müəssisəsinin dövlət, ictimai və biznes strukturları ilə əməkdaşlığının təşviq edilməsi şuranın səlahiyyətlərinə daxildir.

Himayəçilər Şurası beynəlxalq təhsil, elmi, texniki və mədəni əməkdaşlığın inkişafına kömək göstərməklə yanaşı, təhsil müəssisəsinə büdcədənkənar vəsaitlərin cəlb edilməsi və universitetin infrastrukturunun inkişafı, maddi-texniki bazasına dəstək verilməsi funksiyalarını da həyata keçirəcək.

Xatırladaq ki, Himayəçilər Şurasının tərkibinə təhsil naziri Ceyhun Bayramov, ədliyyə nazirinin müavini Azər Cəfərov, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, xalq yazıçısı Elçin Əfəndiyev, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev və "BP-Azerbaijan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli daxildir.

# Bişkekdə İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib



Mayın 17-də Qırğızıstan Respublikasının Bişkek şəhərində 15-18 may tarixlərində keçirilən "Rəqəmsal əsrdə kitab və mütaliə" mövzusunda Beynəlxalq Konfrans çərçivəsində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbir Qırğızıstan Milli Kitabxanası, Azərbaycan Respublikasının Qırğızıstandakı səfirliyi, TÜRKSOY, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Milli Kitabxanasının birgə təşkilatçılığı ilə baş tutmuşdur.

İlk olaraq Qırğızıstan Milli Kitabxanasının foyesində Azərbaycan Milli Kitabxanasının fondunda olan Nəsiminin əsərlərindən ibarət kitab sərgisinin açılışı olmuşdur.

Tədbiri Qırğızıstan Respublikası Mədəniyyət, İnformasiya və Turizm Nazirliyinin nümayəndəsi Jamankulov Azamat Kaparoviç açaraq beynəlxalq konfrans çərçivəsində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirin keçirilməsinin əlamətdar bir hadisə olduğunu söyləmişdi.

Azərbaycan Respublikasının Qırğızıstan Respublikasındakı səfiri Hidayət Orucov təşkilati dəstəyə görə Qırğızıstan Respublikası Mədəniyyət, İnformasiya və Turizm Nazirliyinə, Qırğızıstan Milli Kitabxanasına və TÜRKSOY təşkilatına dərin minnətdarlığını bildirmişdi.

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov İmadəddin Nəsiminin yaradıcılığı haqqında geniş söhbət açaraq şairin çox mürəkkəb və ziddiyyətli bir inkişaf yolu keçdiyini, Azərbaycan ədəbiyyatında ana dilində yaranan fəlsəfi şeirin əsasını qoyduğunu, şairin 15-ci əsrdən etibarən bütün türk ədəbiyyatına qüvvətli təsir göstərdiyini, əsərlərinin əlyazma şəklində geniş yayılaraq dünyanın bir sıra mötəbər kitabxanalarında saxlanıldığını söyləmişdi. Direktor qeyd etmişdir ki, Milli Kitabxana da öz növbəsində "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən milli mədəniyyətimizin nümunəsi kimi il ərzində şairin irsinin tədqiqi və təbliği istiqamətində müəyyən işlər həyata keçirir. Kərim Tahirov çıxışında bildirmişdi ki, 2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının qeyd edilməsi, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən 2019-cu ilin "Nəsimi ili" elan edilməsi və 650 illik yubileyinin təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsidir.

Azərbaycanın TÜRKSOY-dakı daimi nümayəndəsi Elçin Qafarlı çıxış edərək Nəsiminin əsərlərinin hələ sağlığında Azərbaycan, Yaxın Şərq, İraq, Kiçik Asiya və Suriyada, eləcə də Orta Asiyada geniş şöhrət tapdığını bildirmişdi.

Daha sonra Nəsimi haqqında qısa filmin nümayişi keçirilmişdi.

Qırğızıstanın TÜRKSOY-dakı daimi nümayəndəsi Kojageldi Kuluyev çıxış edərək dahi sənətkar Nəsiminin irsinin geniş araşdırılaraq tədqiq edilməsini və əsərlərinin türk xalqlarının dillərinə tərcümə edilərək nəşr olunmasını vacib bilmişdi.

AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxış edərək XIV əsrin sonu, XV əsrin əvvəllərində yaşayıb-yaratmış böyük Azərbaycan şairi və filosofu İmadəddin Nəsiminin ərəb, fars və türk dillərində humanist ruhlu əsərlər qələmə alan ən böyük sənətkarlardan biri olduğunu, bizim ana dilində yazan ilk sənətkarlardan olan Nəsiminin əsərlərinin təsiri altında böyük şairlərimizin yetişdiyini söyləmişdi.

Qırğızıstan Milli Kitabxanasının direktoru, professor Jıldız Bakaşova çıxış edərək dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə möhtəşəm tədbirin Qırğızıstan Milli Kitabxanasında təşkil olunmasından qürur duyduğunu bildirmişdi. Professor bildirmişdi ki, türk xalqları hər zaman Nəsimi kimi dahi şəxsiyyətlər yetirib və onlarla fəxr edir.

Daha sonra türk yazıçı-araşdırmaçı Kenan Çarboğa, qazax şairi Dauletbek Baytursunlu, başqırd şairi Hizmətulla Yuldaşev İmadəddin Nəsiminin həyat və yaradıcılığı haqqında geniş danışmış və onu türk xalqlarının böyük şairi adlandırmışlar.

Sonda Diaspora təşkilatının incəsənət xadimlərinin ifasında Nəsiminin şeirləri və sözlərinə yazılmış mahnılar səslənmişdi.

## Laçının işğalından 27 il keçir

# Azərbaycanın Xarici İşlər Nazirliyi Laçının işğalının 27-ci ildönümü ilə bağlı açıqlama yayıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Laçın rayonunun işğalı ilə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada 27 il əvvəl, 1992-ci il mayın 18-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bildirilir.

Qeyd edilir ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüz siyasətinin davamı olan Laçın rayonunun işğalı nəticəsində bölgənin əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min 518 nəfər Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayır.

Ermənistanın işğalı rayonda dövlət mülkiyyətinə və özəl mülkiyyətə ciddi zərər yetirib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib. Həmçinin dünya, yerli əhəmiyyətli çoxsaylı tarixi abidə vandalizmə məruz qalıb. O cümlədən VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq viran edilib, Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan olunub.

Beynəlxalq humanitar hüququ, o cümlədən Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozan Ermənistan işğal etdiyi digər Azərbaycan ərazilərində olduğu kimi, Laçın rayonunda da qeyri-qanuni fəaliyyəti davam etdirir, coğrafi adlar dəyişdirilir, rayonun təbii resursları talan edilir, qanunsuz infrastruktur dəyişiklikləri həyata keçirilir, burada məqsədyönlü məskunlaşma siyasəti aparılaraq bölgənin demoqrafik tərkibi dəyişdirilir.

Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci il 16 iyun tarixli qərar qəbul edərək onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququnun, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin bu qərarın 19-20-ci paraqraflarında Laçın rayonu, ələlxüsus Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Lakin Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, eləcə də digər beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin tələblərinə məhəl qoymayaraq onları ciddi şəkildə pozur və Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsi siyasətini yürüdür.

Ermənistan anlamalıdır ki, Azərbaycan ərazilərinin işğal altında saxlanılması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verməyəcək. Azərbaycan ərazilərinin işğalına əsaslanan status-kvo dayanıqlı deyil və qəbuledilməzdir. Bölgənin, o cümlədən Ermənistanın özünün dayanıqlı, demokratik, sülh, sabitlik və təhlükəsizliyin təmin olunduğu bir şəraitdə inkişafı ilk növbədə beynəlxalq hüququn aliliyinin təmin olunması, işğal amilinin aradan qaldırılması, məcburi köçkünlərin fundamental hüquqlarının bərpa olunmasından asılıdır. Yalnız Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrindəki Ermənistan silahlı qüvvələrinin bu ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması iki ölkə arasında normal qonşuluq münasibətlərinin qurulmasına və bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın bərpa olunmasına imkan yaradacaq.

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi, Laçın, habelə ölkənin digər işğal edilmiş rayonlarından olan məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaq kimi hüquqlarının təmin edilməsi və ümumilikdə münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi, Azərbaycan dövlətinin ayrılmaz hüququdur.

# Laçının minillik yadigarları

### Bu ulu yurddakı tarixi, dini, mədəniyyət abidələri erməni vandalları tərəfindən məhv edilir



Ulu babalarımızın çox dəyərli yadigarları hesab edilən maddi mədəniyyət nümunələri respublikamızın əksər ərazilərində yetərincədir. Ona görə də ölkəmizə səfər edən səyyahlar Azərbaycanın tarixini özündə əks etdirən qədim dini və mədəni abidələrə heyranlıqlarını gizlədə bilməmiş və bu barədə dəfələrlə öz xatirələrində qeyd etmişlər.

Dağların "quşqonmaz" zirvəsində əsrlərin "dizini qatlayan", minilliklərdən soraq verən qalalar məskəni Laçının vəsfi şeirin, musiqinin ritminə köklənib. Amma son illər bəstələnən bir mahnı da var ki, Laçının təkcə təbiətini deyil, taleyini də ifadə edir. Laçından uzaq düşüb xiffət çəkərək, sevilən mahnıları ilə xatirələrdə yaşayan Məhəbbət Kazımovun haraylı səsində "Laçınım... Laçınım... Laçınım mənim" təkcə Laçında doğulanları deyil, o yerlərin həsrətini çəkənləri də yandırıb-yaxır, qartalları iyirmi yeddi ildir qıy vurmayan qayalıdaşlı dağlara səsləyir.

Laçın düşmən məkrinin, çirkin siyasətin qurbanı olub. Dağlarımızın zirvəsi sayılan Laçının işğalının növbəti ildönümündə o yurdlarda doğulmuşların qəlbindən qara qanların necə axdığını təsəvvür etmək o qədər də çətin deyil. Yazın gəlişi ilə dağlar yaşıl donuna bürünüb aran ellərini yaylağa haraylayardı... Şuşanın arxadayağı, söykənəcəyi olan Laçının bir tərəfi də Kəlbəcər idi...

Vaxtilə Soltan bəyin qarşısında baş əyən erməni qaçaq-quldurlarının törəmələri indi o yerlərdə "at oynadır"!.. Xalqımızın ümumi sərvəti olan dağlarımızın yağmalanması ilə dəyəri milyardlarla ölçülən təbii sərvətlərimiz daşnakların əlinə keçdi, talandı. Təkcə maddi sərvətlər beşiyi deyildi Laçın. Burada minillərin, əsrlərin yadigarı olan mənəvi sərvətlərimiz də az deyildi. Təəssüflər olsun ki, bu gün sözdə humanizmin təbliği ilə məşğul olan beynəlxalq təşkilatlar bu talanların qarşısını almaq istəmirlər.

Laçından ayrıldığımız ötən illərdə burada ermənilərin məskunlaşdırılması dəfələrlə müzakirə mövzusu olsa da, buna beynəlxalq birlik göz yumur.

## Dağlıq Qarabağ üçün "Laçın koridoru"?!

Laçının ərazisindəki maddi mədəniyyət nümunələrimizin hansı səviyyədə olması isə işğal altında qalan torpaqlarımıza vaxtaşırı səfər edən beynəlxalq faktaraşdırıcı missiyanın üzvlərinə də məlumdur: daşı daş üstə qalmayıb. Tarixin yaddaşı olan abidələr bu yerlərdə çoxdan saxtalaşdırılıb - erməniləşdirilib. Bir sözlə, Azərbaycanın mədəni irsini hədəf seçən ermənilər işğal altında qalan maddi mədəniyyət abidələrimizi tamamilə və qəddarlıqla məhv etmişlər.

1992-ci il may ayının 18-də erməni işğalçıları rayonun yüzlərlə mədəni-məişət obyektini, onlarla qəsəbə, kənd və tarixi abidələrini dağıtdı. İşğal nəticəsində 63 min 341 Azərbaycan vətəndaşı öz yurdundan didərgin salındı, 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və ya itkin düşdü. Rayonda 154 məktəb, yüzlərlə tarix-mədəniyyət abidəsi işğal altında qaldı. Şuşanın Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən geostrateji mövqeyə malik olan Laçını işğal etməsi ilə Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurdu. Təbii sərvətlərlə





zəngin Laçında Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar var idi. Ümumi ehtiyatları 1124 ton olan 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), 4457 min ton əhəngdaşı, ehtiyatları 2533 min kubmetr olan və istismara cəlb edilən üzlük daşı istehsalına yararlı Hoçaz mərmərləşmiş əhəngdaşı, mişardaşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), 2 əlvan bəzək daşı, vulkan külü yataqları var idi.

Rayondakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da işğal altındadır. Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü vardı. 1961-ci ilin noyabr ayında heyvan və quşları qoruyub saxlamaq və artırmaq məqsədilə yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, dağkeçisi, çöldonuzu, ayı, turac, kəklik, qaratoyuq kimi nadir fauna növləri olub. 1989-cu ildə yasaqlıqda aparılan yoxlama zamanı dağkeçisi 96, qaban 360, cüyür 320, ayı 110 baş, eləcə də çoxlu sayda digər vəhşi heyvanlar və quş növləri qeydə alınmışdı.

İşğalçılar beynəlxalq hüquq normalarına, zəbt olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq Laçında qanunsuz məskunlaşmanı bu gün də davam etdirirlər.

Laçın dağlarında qədim mədəniyyət abidələri ilə təbiət bir-birini sanki tamamlayırdı. Cicimli, Güləbird, Soltanlar, Zeyvə, Malıbəy, Bülövlük, Araflı, Əliqululu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan və digər kəndlərdəki tarixi abidələr (12 qoç, 28 at fiquru, 36 müxtəlif süjetli yazılar və rəsmlər, sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən sənət rəmzləri həkk edilmiş qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı) bu torpaqlarda minillər boyu yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələr idi.

## "Ay allahı" da bu yerlərdəydi...

Rayonun Cicimli kəndindəki məbəd, qədim anbar, Güləbirddə Sarı Aşığın qəbirüstü ziyarətgahı, rayon tarix-diyarşünaslıq muzeyi əsrlərin canlı salnaməsi idi. Muzeydə toplanmış nadir eksponatlar Laçının zəngin tarixi keçmişi haqqında dolğun təsəvvür yaradırdı. Təəssüf ki, Laçının işğalı nəticəsində bu tarixi incilər də təcavüzün qurbanına çevrildi. Belə təcavüzə məruz qalanlardan biri də saxta erməni kilsəsi kimi təqdim olunan Ağoğlan abidəsidir. Böyük Vətən müharibəsi iştirakçılarının xatirə kompleksinin erməniləşdirilməsi, şəhərin qərb istiqamətdən çıxışında tikilmiş abidə - "Qala qapısı" (üzərində erməni xaçı) və s. dediklərimizə əyani sübutdur.

Laçın ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Memarlıq elmləri doktoru D.A.Axundov və fəlsəfə doktoru M.D.Axundov "Qafqaz Albaniyasının stellalarında dini simvolika" və "Dünyanın mənzərəsi" adlı məqalələrində göstərirlər ki, düzbucaqlı çərçivə içərisində cızma texnikası ilə işlənilən qadın, güman ki, Ay allahı kimi təsvir olunmuşdur. Göstərilən bu abidə-stella bizim eranın xristianlıqdan əvvəlki dövrünə, bəlkə də daha qədimlərə aiddir. Buna bənzər, daha doğrusu, tamamilə onun eyni olan bir stella da Kosalar kəndində, Ağoğlan qəsrinin həyətində idi.

Alı Xəlifə ocağı Laçının Böyük Seyidlər kəndində idi. Qarabağın ən ağır seyidlərindən sayılan Alı Xəlifə həmin kənddə dünyasını dəyişmişdi və məzarı üstündə sərdaba tikilmişdi. Ən ulu səcdəgahlardan biri də məhz Alı Xəlifənin ocağı sayılırdı.

Laçının müqəddəs yerlərindən biri də Böyük Seyidlər kəndindəki Seyid Hüseyn ziyarətgahı idi. Bu kənddəki "Güllü qəbir" piri də müqəddəs məkanlardan hesab edilirdi. Orada dəfn edilmiş Hacı İbrahim ağa, məlumatlara əsasən, Qarabağ ellərinin ağır övliyalarından sayılan Xudavəndə Xəlifənin nəvəsi idi.

## Uca dağlar al şəfəqə bürünmür...

Ağoğlan qəsri Laçının Minkənd çayının kənarında, hündür bir yerdədir. Cicimlidə məbəd, qədim anbar, Güləbirddəki Sarı Aşığın qəbirüstü ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, Soltanbaba, Minkənddə XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə və Piçənisdəki alban məbədləri, Xan qəbiristanlığındakı Zəngəzurun sultanları - Qara Murtuza bəyin, 1-ci Alməmmədin, 2-ci Alməmmədin hasardakı türbələri, Şeyx Şamillə dostluq etmiş, ona kömək göstərmiş Cəbrayıl bəyin türbəsi, Araflıda Murtuza Sultanın anasının türbəsi, Pircahan çayı üzərindəki Məşədi Mehralının arxitekturalı və Minkənd körpüləri kimi tarixin nadir inciləri erməni vandalları tərəfindən darmadağın edildi.

Təbii ki, Laçın rayonu ərazisində bir vaxtlar mövcud olmuş tarixi abidə və məbədlər adları yuxarıda çəkilənlər deyil. Qalalar, məbədlər diyarında təbii sərvətlər bu gün də ermənilər tərəfindən vəhşicəsinə talan edilməkdədir. Son vaxtlar oradan tapılmış xəzinə də bunu təsdiqləyir.

...Uca dağlar al şəfəqə bürünürmü? Yal-yamacda ağ sürülər görünürmü? Duman yenə dağlar ayağına sürünürmü?! Görəsən, bu yanıqlı səs yalçın qayalarda duyulurmu: nə yaman ağrılı imiş Laçın həsrəti. Kim çəkə bilər ki, belə möhnəti, Laçınım mənim?!

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

18 may Beynəlxalq Muzeylər Günüdür

# Assuriya qələbəsindən Lələtəpə zəfərinədək...

**Sürünə-sürünə irəliləyirik, yaxınlıqdan şeypur səsi, kamandan açılan oxların vıyıltısı, bir-birinə dəyən qılınc və qalxanın şaqqıltısı eşidilir...**

**Daşlara dəyən nallarından ətrafa qığılcım saçılan atlar şahə qalxaraq kişnəyir, düşmənin ardınca irəli şığıyan igidlər nərə çəkir...**

**Midiyanın cəsur hökmdarı Kiaksar nəhəng Assuriyanı diz çökdürür və onun paytaxtı Neneviyanı, yəni aslanlar yuvasını zəbt edir...**

**Qələbə nəğmələri oxuyan qəhrəman döyüşçülərlə birgə onların şərəfinə ucaldılmış zəfər tağlarının altından keçirik...**

**Burada bizi pəhləvan cüssəli, iti baxışlı, hökmündən yer titrəyən qüdrətli Atropat qarşılayır. Kəsərli qılınc belində, əlində toppuz, nəzərləri isə düz düşmənin ürəyinə saplanıb...**

Haradansa yaxınlıqdan Cavanşirin cəng meydanlarından hayqırtısı eşidilir...

Vuruşur, döyüşür, çarpışır, ana torpağını parçalamaq istəyənlərə aman vermir...

Hərb meydanlarında Qaraqoyunlu, Ağqoyunlu bayraqları dalğalanır...

Bu zaman üfüqdə minlərlə Qızılbaşın arasından 12-13 yaşlı bir cəngavər parlayır...

Qılıncının bir zərbəsi yetər ki, düşmən topunun lüləsi iki hissəyə bölünsün...

"Mürşidi-kamil", "şahların şahı" Şah İsmayıl Xətai...

Qala divarları arxasında qızğın döyüş gedir...

Gəncə bəylərbəyisi Qacar tayfasının görkəmli nümayəndəsi Ziyadoğlu Cavad xan and içib, heç zaman Gəncəni düşmənə təslim etməyəcək. General Sisyanovun ultimatumlarına qəti cavab verir: "Şəhəri verməyə gəlincə bu niyyətindən çəkin, çünki bu olan iş deyil. Sən Gəncəyə yalnız mənim meyitimin üzərindən girə bilərsən. Başa düşürsənmi? Ancaq mən öləndən sonra, başqa heç cür"...

❖ ❖ ❖

İlıq bir yaz günüdür...

Nuru paşanın başçılıq etdiyi şanlı türk ordusu başdan-başa al qırmızı lalələrə bürünmüş Gəncə çölləri ilə Bakıya doğru yol alıb...

Göydən mərmi yağır, "artilleriyanın Allahı" Əliağa Şıxlinski qəzəblənib... Səs-küydən qulaq tutulur, toz-dumanı ərşə qalxıb və bu toz buludunun arası ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov və tank komandiri Albert Aqarunovun qoşa tankı irəliləyir...

Bir də baxırıq ki, yüksək bir dağın başındayıq...

Əllərində ay-ulduzlu, üçrəngli bayraq tutmuş milyonlarla insan həmin zirvəyə qalxır...

Səflərində isə Milli Qəhrəman, polkovnik leytenant Murad Mirzəyev, baş-leytenant Elnur İsgəndərov, mayor Təbriz Musazadə, baş leytenant Əbu Bəkir İsmayılov və daha neçə-neçə igidlərimiz...

Bu zəfər yürüşünün istiqaməti Lələtəpəyədir...

## Şanlı hərb tariximizin təcəssümü




















### Helikopterlər havalanacaq, toplar guruldayacaq, tanklar irəli şığıyacaq...

18 may Beynəlxalq Muzeylər Günü ərəfəsində başdan-başa qəhrəmanlıq salnaməmizlə dolu zaman tunelində - Azərbaycan Hərb Tarixi Muzeyindəyik...

Muzey 1992-ci ildə keçmiş Salyan kazarmasının, indiki Qızıl Şərq hərbi şəhərciyi adlanan ərazidə yerləşən 295-ci motoatıcı diviziyanın "Döyüş şöhrəti" muzeyinin bazasında yaradılıb. 2003-cü ildə muzeyin hazırda yerləşdiyi bina istifadəyə verilib və açıq səma altında ekspozisiyası yaradılıb.

Muzeyin həyətinə daxil olduğumuz ilk andan etibarən özümüzü döyüş meydanında hiss edirik... Açıq hava altında nümayiş olunan tanklar, zirehli transportyorlar, piyada döyüş maşınları, artilleriya topları, hərbi təyyarə və helikopterlər, hərbi hava və hərbi dəniz qüvvələrinə aid texnikalar elə bir hiss yaradır ki, sanki bu dəqiqə helikopterlər havalanacaq, toplar guruldayacaq, nəhəng tanklar da irəli şığıyacaq...

### "Dayan doldurum" gülləsi

İki mərtəbədən ibarət muzey Azərbaycanın hərb tarixini, onun hərb sənətini dövrlər üzrə öz ekspozisiya və vitrinlərində əks etdirir. Burada qədim və orta əsrlərdən müasir dövrə qədər Azərbaycan tarixini, ordu quruculuğunu, onun hərbi sursatlarını, silahlarını, hərb geyim formalarını özündə birləşdirən, eyni zamanda, görkəmli sərkərdələrə, generallara aid eksponatlar mühafizə olunur. Ekspozisiyada hərb tariximizin inkişaf mərhələləri geniş təhlil olunaraq xronoloji ardıcıllıqla əks etdirilib. Bu dəyərli tarixi nümunələrlə tanışlıqda muzeyin baş elmi işçisi Gülnar Bəşirova bizə bələdçilik edir.

Gəzintimizə lap qədimdən, muzeyin uzaq keçmişdən xəbər verən "Qədim, erkən, orta əsrlər dövrü" zalından başlayırıq. Burada nümayş etdirilən eksponatlar ibtidai icma quruluşunun bütün mərhələlərini əks etdirir. Qədim insanların istifadə etdiyi alətlər, silahlar o dövr haqqında aydın təəssürat yaradır. Eyni zamanda, zalda Manna-Midiya, Atropatena, Albaniya dövlətləri haqqında geniş məlumat verilir. Burada diqqəti ən çox cəlb edən eksponatlar arasında Naxçıvandakı Oğlanqalanın maketi, Atropatena dövlətinin başçısı Atropatın heykəli, öküzlər vasitəsilə hərəkət edən döyüş qülləsi, orijinal döyüşçü boyunbağıları, qolbağı, təbərzinlər, nizə, ox ucluqları xüsusi diqqət cəlb edir.

Həmçinin zallarda irəlilədikcə Səlcuqlu, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövrünə aid bir-birindən maraqlı eksponatlarla qarşılaşırsan və şahidi olursan ki, dövrünü əks etdirən toppuz, yay, ox, sadax, arbolet, qalxan nümunələri özünəməxsus işləmələri, naxışları ilə fərqlənir. Səfəvilər dövrünə aid məşhur "dayan doldurum" gülləsi isə maraq çəkən eksponatlar sırasındadır.

### Xalq Cümhuriyyəti dövrü

Eksponatların zənginliyinə görə diqqət çəkən digər zal "Xanlıqlar dövrü" adlanır. Burada Azərbaycanda xanlıqların yaranması, onların qoşun növləri haqqında məlumat verilir. Zalda xəncər qını, dəhrə kimi orijinal silah alətləri nümayiş olunur.

Muzeyin "1801-1918-ci illər dövrü" zalında digər eksponatlarla bərabər, Azərbaycanın iki hissəyə bölünməsini əks etdirən stend də yer alıb. "1918-1920-ci illər dövrü" zalı isə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və onun fəaliyyəti dövrünü əhatə edir. Buradakı eksponatlar vasitəsilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları barədə ətraflı məlumat verilir. Bundan başqa, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları - gerbi, bayrağı, himni ayrıca stenddə təqdim olunur. Stendlərdə Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatların planları, döyüş xəritələri, ordumuzun süvari və piyada geyim nümunələri və s. nümayiş etdirilir.

"1920-1939-cu illər dövrü" zalında stendlərin hər birinə uyğun fotolar nümayiş olunur. Zaldakı stendlərdə Azərbaycan SSR-in yaradılması, Azərbaycanda hərb işinin təşkili, Azərbaycan Ordusunun mühacirətdə olan zabitləri ilə bağlı məlumatlar, sovet ordusunun geyim forması və digər nümunələr yer alıb.

### Ümummilli liderin müstəsna xidmətləri

"Azərbaycan İkinci Dünya müharibəsi dövründə" zalı 1939-1945-ci illəri əhatə edir. Burada iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun büstü, ona məxsus silah qabı, döyüş yolunu əks etdirən xəritə nümayiş olunur. Bu zalda Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun büstü və ona məxsus əşyalar da yer alıb. Həmçinin faşizm üzərində qələbə çalan qəhrəman azərbaycanlıların orden və medalları sərgilənir.

İçərisində stol, kətil, qumquma, zabit səhra çantası, binokl, fənər, yemək qabı, bir neçə dilim qurumuş çörək olan müharibə illərindəki qərargah otağını seyr etdikcə bir anlıq da olsa özünü həmin yerdə, həmin şəraitdə hiss edirsən.

Muzeyin "1946-1991-ci illər dövrü" zalında isə azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistandan kütləvi deportasiyası, 1990-cı il 20 Yanvar hadisələri ilə bağlı geniş məlumat verilir.

Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri, fəaliyyəti sayəsində formalaşmış və inkişaf yoluna qədəm qoymuş Azərbaycan Silahlı Qüvvələrinin hərbi dəniz, hərbi hava hücumundan müdafiə, o cümlədən quru qoşunlarının inkişaf yolunu özündə əks etdirən zallarda silahlı qüvvələrimizin qısa zaman kəsiyində yenidən qurulması, onun döyüş hazırlığı, gücü, beynəlxalq hərbi təşkilatlarla əməkdaşlığı və s. məsələləri özündə əks etdirən materiallara xüsusi yer verilib. Bu zallarda Azərbaycan Ordusu haqqında kifayət qədər məlumatlar əldə etməklə yanaşı, hərb tariximizin maraqlı səhifələri ilə də yaxından tanış olmaq mümkündür.

"Quru qoşunlar" zalında Azərbaycanın Milli qəhrəmanlarına aid ayrıca stend var. Bu stendlər 1991-1993, 1993-2003 və 2003-2010-cu illəri əhatə edir. Bura gələnlər Milli qəhrəmanların fotostendinə, quru qoşunlara aid hərbi geyimlərə, milli ordumuzun əsgərlərinə məxsus əşyalara, cəbhə bölgəsində istifadə olunan hərbi sursat və s. tanış ola bilərlər.

### Şəhid hərbçilərə məxsus şəxsi əşyalar

Müasir dövrə aid zalda Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsinə həsr olunmuş stendlər, həmin döyüşlərdə qəhrəmancasına şəhid olan hərbi qulluqçulara məxsus şəxsi əşyalar sərgilənir.

O cümlədən Milli Qəhrəman Murad Mirzəyevə məxsus qış səhra geyimi, baş leytenant Emil İsgəndərova, kapitan İnqilab Quliyevə məxsus geyim forması da nümayiş olunur...

Muzeyin zallarını gəzərkən kütləvi qəhrəmanlıqları əks etdirən rəsm əsərləri xüsusilə diqqətimizi cəlb edir. Bunların sırasına Birinci Dünya müharibəsi, İkinci Dünya müharibəsində, Port-Arturun müdafiəsində azərbaycanlıların iştirakı, Moskva, Leninqrad, Qafqaz, Kursk uğrunda gedən döyüşləri əks etdirən rəsm və diaramalar, Qarabağ müharibəsində Azərbaycan Ordusunun Kəlbəcərdə, Füzulidə, Goranboyda apardığı döyüş əməliyyatlarına həsr olunmuş rəsm əsərləri və diaramalar nümayiş olunur.

### 11775 eksponat

Muzeyin direktoru, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə məlumat verir ki, muzeyin daxili ekspozisiyasının yaradılmasına AMEA-nın Tarix İnstitutundan, Arxeologiya və Etnoqrafiya İnstitutundan, Bakı Dövlət Universitetindən tarixçi alimlər cəlb olunub. Bununla yanaşı, Mərkəzi Dövlət Arxivi və İctimai-Siyasi Partiyalar Arxivi ilə də əlaqələr genişləndirilib və ekspozisiyada qədim dövrdən müasir dövrədək hərb tariximizin inkişaf mərhələləri geniş təhlil olunaraq xronoloji ardıcıllıqla əks etdirilib.

Muzey əməkdaşları Azərbaycan Tarixi Muzeyi, Azərbaycan İstiqlal Muzeyi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu, Lənkəran şəhərində yerləşən iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ev-muzeyi, Mingəçevir, Gəncə, İsmayıllı, Biləsuvar, Quba, Qusar, Qazax, Naxçıvan Muxtar Respublikasında yerləşən muzeylərlə və digər tarix-diyarşünaslıq muzeyləri ilə yaxından əməkdaşlıq edərək, Azərbaycan hərb tarixinə dair bir sıra fotomateriallar, sənədlər, vəsiqə və geyim əşyaları toplayaraq, eksponatların sayını 11775-ə çatdırıblar.

Həmçinin muzeyin arxiv-fond hissəsində 12 minə yaxın eksponat mühafizə olunur ki, bu da hərb tariximizin bütün dövrlərini əhatə edir. Muzeyin emalatxana hissəsi də ölkəmizin qədim və orta əsrlər dövrünə dair mövzularda çox maraqlı əşyalar, qədim və müasir dövr silahlarının və ayrı-ayrı döyüş maşınlarının mulyajlarının hazırlanmasında əvəzsiz rol oynayır. Təcrübəli ustalar hazırladıqları əşyaların tarixi gerçəkliyi real şəkildə əks etdirməsi üçün səylə çalışırlar. Arxiv-fond hissə kitabxanası yeni tarixi faktların əldə olunması və elmi tədqiqata daxil edilməsində əvəzolunmaz rol oynayır. Kitabxanada 1000-ə qədər müxtəlif mövzuda kitab və nəşrlər toplanıb.

Muzey ordumuzun döyüş yolunu dünya əhəmiyyətli sərgilərdə də nümayiş etdirir. Ötən ilin sentyabrında ölkəmizdə keçirilən ADEX III Beynəlxalq Müdafiə Sənayesi sərgisində qədim dövrdən müasir dövrədək döyüş silahlarımızın inkişaf mərhələsini özündə əks etdirən "Azərbaycan silahının təkamülü" adlı ekspozisiya sərgilənib və bu, həm yerli, həm də xarici qonaqların diqqətini çəkib.

### Keşməkeşli, qanlı-qadalı, zəfər dolu hərb tariximizə qısa nəzər

Hərb tariximizin güzgüsü olan bu muzey, xüsusilə azyaşlı, məktəbli, yeniyetmə və gənclərimizin ekskursiya edəcəkləri ən qürurverici və örnək götürəcəkləri ünvanlardan biridir...

Qeyd edək ki, muzeyin qapıları 1-5-ci günlər 09.00-dan 18.00-dək kollektiv ziyarətçilərin üzünə açıqdır...

Hərb Tarixi Muzeyinə ekskursiya nəticəsində keşməkeşli, qanlı-qadalı, zəfər dolu hərb tariximizə nəzər saldıq, mübariz, igid, cəngavər sərkərdələrimizlə tanışlıq imkanı qazandıq...

Tariximizin hər qatında, hər zaman dilimində irəlilədikcə öyünəcəyimiz, qürurlanacağımız, fəxr edəcəyimiz o qədər anlarla rastlaşdıq ki...

*Və hərb tariximizə edilən bu qısa ekskursiya belə bunu deməyə əsas verir ki, Azərbaycan, ana vətən uğrunda çarpışan, döyüşən, canlarını belə qurban verməkdən çəkinməyən qəhrəmanlarımız saysızdır...*

*Min illər bundan əvvəl də belə olub, indi də belədir və minilliklərdən sonra da belə olacaq...*

***Yasəmən MUSAYEVA, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***



# Keçmişdən soraq

**Zaman ötüb keçir. Hər dövrdə baş vermiş tarixi hadisələr və görkəmli şəxsiyyətlər haqqında mühüm məlumatların, maddi və mənəvi dəyəri misilsiz olan sənət nümunələrinin qorunub saxlanılması böyük əhəmiyyət daşıyır. Muzeylər xalq üçün, bəşəriyyət üçün bu vacib vəzifəni yerinə yetirir.**



### Qədim eksponatların saxlanc yeri...

Eramızdan əvvəl XVI əsrdə Kritdə, III əsrdə Qədim Roma və Yunanıstanda ilk muzey nümunələrinin yarandığı məlumdur. Onlar əsasən məbədlərin və bəzi şəxslərin kolleksiyalarının toplandığı muzeyvari təşkilatlar idi. Sonralar kolleksiyaların mövzusu genişləndi, elmi, mədəni və tarixi əhəmiyyəti yüksəldi. Həmin kolleksiyalar sayəsində məşhur muzeylər yaradıldı. Bu gün dünyada qədim eksponatların, şəxsi kolleksiyaların, nadir əşyaların saxlandığı möhtəşəm muzeylər var. Vaşinqtonun Milli İncəsənət Qalereyası, Venesiya Akademiya Qalereyası, Drezden Şəkil Qalereyası, Moskva Tretyakov Qalereyası, Sankt-Peterburqdakı Ermitaj Muzeyi buna misaldır.

Ölkəmizdə ilk muzey isə Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Bakıda yaradıldı. Bu muzey 1919-cu il dekabrın 7-də Cümhuriyyət parlamentinin yaradılmasının birinci ildönümü münasibətilə elə parlamentin binasında təşkil olundu və İstiqlal Muzeyi adlandırıldı.

Azərbaycanın ilk memorial muzeyi isə 1938-ci ildə Şəkidə yaradıldı. 1930-cu illərdən ardıcıl olaraq ədəbiyyat, incəsənət, tarix, musiqi, teatr muzeyləri, həmçinin ev-muzeyləri açıldı. Hazırda Azərbaycanda 212 muzey fəaliyyət göstərir. Onlardan 13-ü incəsənət, 7-si ədəbiyyat, 13-ü tarix muzeyidir, 68 tarix-diyarşünaslıq, 6 döyüş şöhrəti muzeyi var. Ev-muzeylərinin sayı 46-ya çatır.

Ölkəmizin ən iri muzeyləri sırasına Milli Azərbaycan Tarixi Muzeyi, N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Milli İncəsənət Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Dövlət Teatr Muzeyi, Musiqi Mədəniyyəti Dövlət Muzeyi, İstiqlal Muzeyi və digər muzeylər daxildir.

Respublikamızın əksər bölgələrinin maddi-mənəvi, mədəni tarixini təcəssüm etdirən tarix və diyarşünaslıq muzeyləri fəaliyyət göstərir. Ölkəmizdə tarix-diyarşünaslıq muzeylərinin yaradılması və inkişaf dövrü keçən əsrin 60-70-ci illərinə təsadüf edir. 1980-ci illərdə bu muzeylərin infrastrukturunun inkişafında, eksponatların toplanılmasında xüsusi ilə nəzərəçarpacaq işlər görüldü.

### Açıq səma altında muzeylər

Bənzərsiz memarlıq üslubuna malik bir sıra tikililər, abidələr, məqbərə və məbədlər, qalalar açıq səma altında muzey adlanır. Açıq səma altında muzey təşkil etməyin vacibliyi ideyası və prinsipləri ilk dəfə isveçrəli alim Ç.Bonsetten tərəfindən XVIII əsrdə irəli sürüldü. İsveçrədə 1891-ci ildə Qezelius məşhur "Skansen" muzeyini təşkil etdi. Hazırda dünyanın müxtəlif məkanlarında belə muzey fəaliyyət göstərir.

Ölkəmizin Şəki Xan Sarayı, Qobustan qayalıqları, Şirvanşahlar sarayı, Möminəxatun türbəsi kimi təkrarsız nümunələri var. Azərbaycanın Şuşa şəhəri, Lahıc qəsəbəsi, Qala kəndi kimi elə yaşayış məskənləri var ki, bütövlükdə bənzəri olmayan muzeylərdir.

### Əsirlikdə qalan maddi-mənəvi xəzinəmiz

Təəssüf ki, ötən əsrin sonlarında qədim ərazilərimizin erməni işğalına məruz qalması nəticəsində tarixi mədəniyyət və memarlıq nümunələrimiz də terror qurbanına çevrildi. Maddi-mənəvi xəzinəmiz olan neçə-neçə abidəmiz, muzeylərimiz erməni quldurları tərəfindən qarət olundu, dağıdıldı. Ermənilərin işğal etdikləri ərazilərimizdə 762 mədəniyyət abidəsi və 1431 mədəniyyət müəssisəsi qalıb. İşğalçılar 22 muzeyi, 4 rəsm qalereyasını yerlə-yeksan ediblər. Həmin 22 muzeydə 100 mindən artıq əşya toplanmışdı. Tamamilə məhv edildiyi bildirilən Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində 30 mindən artıq tarixi əhəmiyyətli əşya var idi.

Canlı muzey sayılan Şuşanın özündə 8 muzey vardı. Şəhərin işğalı zamanı yalnız Xalça və Tətbiqi Sənət Muzeyinin Şuşadakı filialının, Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyinin və Rəsm Qalereyasının eksponatları çıxarıldı. Ancaq həmin muzeylərin fondu da tam xilas edilmədi.

Dövlət Qarabağ Tarixi Muzeyi, Natəvan, Bülbül, Əbdürrəhim bəy Haqverdiyev, Mir Mövsün Nəvvab və başqalarının ev muzeyləri, Qurban Primovun Ağdamdakı xatirə muzeyi qarət olundu. Dünyada analoqu olmayan Ağdamdakı Çörək muzeyi bu şəhərin bombalanması zamanı yerlə-yeksan edildi. İşğal olunmuş ərazilərimizin muzeylərindəki Azərbaycan xalqına məxsus dəyərli eksponatları ermənilər ərazidən çıxardılar. Hətta muzey əşyalarımızın bir hissəsi məkirli qonşularımız tərəfindən digər ölkələrə aparıldı.

Bundan başqa, əhalinin şəxsi evlərində saxlanılan 100 minlərlə dekorativ-tətbiqi sənət nümunələri - xalçalar, tikmənaxışlı qədimi geyimlər, zərgərlik və misgərlik əşyaları talan edildi. Milli-mənəvi dəyərləri olan əşyalarımızın çoxu ermənilər tərəfindən Ermənistana daşınaraq saxtakarlıqla özününküləşdirildi.

### Mədəniyyət nümunələrimiz dünyanın gözü ilə...

Azərbaycan xalqına məxsus olan mədəniyyət inciləri hazırda dünyanın müxtəlif ölkələrinin muzey və sərgi salonlarını bəzəyir. Dünyanın ilk ən böyük və qədim xalçası - XVI əsrdə toxunmuş "Şeyx Səfi" xalçası Londonun Viktoriya və Albert Muzeyində saxlanılır. Həmin xalçanın uzunluğu 10,51 metr, eni 5,34 metr, ümumi sahəsi 56,2 kvadratmetrdir.

Müxtəlif yollarla ərazilərimizdən çıxarılmış, dünyanın fərqli ölkələrinin muzeylərində və ya şəxsi kolleksiyalarda saxlanılan milli-mənəvi dəyərlərə, tarixi əhəmiyyətə malik əşyalarımızın böyük əksəriyyəti Azərbaycanın və azərbaycanlıların adı ilə təqdim olunmur.

*Başqa millətlərin nəinki torpaqlarına, həm də mənəvi dəyərlərinə göz dikən ermənilər isə muzey eksponatlarımızı, tarixi abidələrimizi öz adlarına çıxarmağa cəhd göstərir, bunun üçün bütün vasitələrə əl atırlar. Ancaq unudurlar ki, o qədim nümunələrdə yalnız xalqın tarixi deyil, həm də ruhu yaşayır. Belə sənət əsərləri hansı dövrdə yaradılmasından asılı olmayaraq, yalnız həmin xalqa məxsusdur.*

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Prezident paytaxt qəsəbələrinin daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq verib

## Eldar Əzizov "Açıq mikrofon" vasitəsilə Binəqədi qəsəbəsi sakinlərinin problemlərini dinlədi

Prezident İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Binəqədi rayonu Binəqədi qəsəbəsinin sakinləri ilə görüşü olub.



Sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə təşkil olunan görüşdə müvafiq təsərrüfat və xidmət sahələrinin rəhbərləri, Binəqədi qəsəbəsinin ayrı-ayrı məhəllələrinin sakinləri, ağsaqqallar, həmçinin qonşu Biləcəri qəsəbəsinin nümayəndələri iştirak etmişlər.

Bu gün paytaxtımızın sürətlə inkişaf etdiyini, onun müasir görkəm aldığını vurğulayan Bakı Şəhər İcra Hakimiyyətinin başçısı bildirib ki, Prezident İlham Əliyevin siyasəti ümumxalq xarakterlidir və bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır. Cənab Prezidentin dövlət qurumlarının rəhbərləri qarşısında qoyduğu əsas tələb vətəndaşların problemlərinin həllinə öz problemləri kimi yanaşmaqdır. Paytaxtda aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərindən danışan Eldar Əzizov dermişdir ki, dövlət başçısı qarşıya paytaxtın qəsəbələrinin daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq qoyub.

Sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbəsi üzrə nümayəndəsi Zakir Əliyev qəsəbədə görülmüş işlərlə bağlı hesabat vermişdir. "Açıq mikrofon" formatında sakinlərin böyük fəallığı ilə keçən görüşdə çıxış edən binəqədililər Bakı şəhərində, eyni zamanda Binəqədi qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, dövlət başçısının həyata keçirdiyi siyasi kursa birmənalı dəstək ifadə ediblər.

Maraqlı dialoq şəklində keçmiş görüşdə 39 nəfər sakin şıxış edib, onları narahat edən məsələlər dinlənilib və müvafiq tapşırıqlar verilib. Müraciətlər, əsasən, su və kanalizasiya xətlərinin yenilənməsi, məhəlledaxili yolların təmiri və işıqlandırılması, sahibsiz heyvanların yığışdırılması, qəsəbədə yeni uşaq bağçası və məktəbin tikintisi və s. olmuşdur.

Görüşdə sakinləri daha çox narahat edən qayğılardan olan fərdi yaşayış evlərinin sənədləşdirilməsi məsələsinə toxunan Eldar Əzizov bildirmişdir ki, bu problem onilliklərdən bəri yığılıb qalmış problemdir. Dövlət başçısı bu problemin həlli ilə bağlı müvafiq tapşırıqlar verib. Tərəfimizdən işçi qrupu yaradılıb və Bakı şəhərinin bütün qəsəbələrinin sakinlərini narahat edən bu məsələnin həlli üçün əlaqədar qurumlarla birgə işlər aparılır. Tikilən evlərin sənədləşmə prosesində bir sıra əlavə problemlər ucbatından bu işləri bir anda həll etmək mümkün deyildir, vaxt tələb olunur. Hər halda məsələ nəzarətdə saxlanılır.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

# Avropa Gənclər Yay Olimpiya Festivalının biletləri iyunun 10-da satışa çıxarılacaq

Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi ilə "iTicket" bilet satış şirkəti arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, razılığa əsasən, "iTicket.az" şirkəti "Bakı 2019" Avropa Gənclər XV Yay Olimpiya Festivalının rəsmi bilet satışının təminatçısı və dəstəkçisi olub.

Gənclər və idman naziri Azad Rəhimov "iTicket.az" şirkəti ilə razılığın əldə olunmasından məmnunluğunu bildirərək deyib: "Biz açılış və bağlanış mərasimləri üçün ən münasib qiymətləri müəyyənləşdirmişik. Həmçinin bütün idman yarışlarına pulsuz biletlərin olmasını planlaşdırırıq. Ümid edirik ki, bütün bunlar yerli və xarici idman azarkeşlərində festivala daha çox maraq cəlb edəcək və bu möhtəşəm idman oyunlarını şəxsən izləmələri üçün şərait yaradacaq".

"iTicket.az" şirkətinin baş direktoru Ziya Məmmədov saytın Bakıda keçiriləcək Avropa Gənclər XV Yay Olimpiya Festivalının rəsmi dəstəkçisi olmasından qürur duyduğunu vurğulayıb: "Əvvəlki vaxtlarda keçirilmiş belə beynəlxalq tədbirlərdən əldə etdiyimiz təcrübəmiz bizə "Bakı 2019"da öhdəliklərimizi uğurla yerinə yetirəcəyimizə dair inam yaradır".

Festivalın yarışlarına ümumilikdə 146 min bilet satışa çıxarılacaq. Biletlərin təxminən yarısı iyunun 10-dan "Bakı 2019"un rəsmi saytında https://www.eyofbaku2019.com və iTicket.az rəsmi saytında https://www.iticket.az satışda olacaq. Bundan başqa, bütün idmansevərlər biletləri "Park Bulvar", "Gənclik", "28 May" ticarət mərkəzlərindən və paytaxtın müxtəlif ərazilərindəki 12 bilet satışı məntəqəsindən əldə edə biləcəklər.

Açılış mərasiminə bir biletin qiyməti 10-15, bağlanış mərasiminə isə 5-10 manat arasında olacaq. Hər iki mərasim "Baku Crystal Hall"da keçiriləcək.

Biletlərin sifarişi və əldə olunması ilə bağlı əlavə məlumat "Bakı 2019"un rəsmi səhifəsində elan ediləcək.

Qeyd edək ki, 2016-cı ildən fəaliyyət göstərən "iTicket.az" konsert, teatr, idman və əyləncəvi təşkilatların bilet satışını onlayn və oflayn qaydada həyata keçirir. 2017-ci ildən etibarən iTicket.az IV İslam Həmrəyliyi Oyunlarının, "Formula-1" üzrə Azərbaycan Qran-prisinin, qadın voleybolçular arasında Avropa çempionatının (2017), UEFA Çempionlar Liqasının qrup mərhələsinin oyunlarının, BMX velosipedi üzrə dünya çempionatının, "Jara-18" beynəlxalq musiqi festivalının, Azərbaycan Cüdo Federasiyasının və AFFA-nın rəsmi bilet təminatçısı və dəstəkçisi olub.

İyulun 21-27-də Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalında iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə gələcək. Atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# Azərbaycan böyük futbol bayramına hazırlaşır

## Bakı növbəti mötəbər idman tədbirinə evsahibliyi edəcək

*Əvvəli 1-ci səh.*

Rusiya və ABŞ-ın ali hərbi rəhbərlərinin danışıqlar üçün görüş yerini Bakıya təyin etmələri bunun təsdiqidir.



Bir daha xatırladaq ki, Azərbaycan indiyədək hər ölkəyə müyəssər olmayan "Avroviziya" musiqi yarışmasına da evsahibliyi edib. 2012-ci ildə Bakıda keçirilən "Avroviziya" musiqi yarışması tarixində ən mükəmməl təşkilatçılıq nümunəsini ortaya qoyub. Eyni fikirləri I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları barədə də söyləmək olar. İlk Avropa Oyunlarına evsahibliyi etməklə ölkəmiz həm də bu yarışmanın təşkilatçılığı məsələsində standartları müəyyən etdi.

Bunlarla yanaşı, 4 ildir ki, Bakı "Formula-1" yarışlarına da evsahibliyi edir. Yüz milyonlarla tamaşaçı auditoriyası olan bu mötəbər yarışın Azərbaycanda təşkili irimiqyaslı idman tədbirlərinin keçirilməsində ölkəmizin malik olduğu potensial imkanları nümayiş etdirir, beynəlxalq idman aləmində nüfuzunu daha da artırır.

Bütövlükdə son illərdə Bakıda saysız-hesabsız mötəbər idman yarışları keçirilib ki, onların hər birində ölkəmiz mükəmməl təşkilatçılıq baxımından öz möhürünü vurub. Təbii ki, bütün bunlar respublikamızın imicinin yüksəlməsinə mühüm təsir edən məsələlərdir.

Mayın 29-da Bakı daha bir mötəbər idman yarışmasına evsahibliyi edəcək. Bu dəfə paytaxtımızın ən möhtəşəm ünvanlarından olan olimpiya stadionunda UEFA Avropa Liqasının final oyunu keçiriləcək. Məlum olduğu kimi, Avropanın əsas futbol təşkilatı olan UEFA-nın klublararası iki elit turniri var. Bunlardan biri UEFA Çempionlar Liqası, digəri UEFA Avropa Liqasıdır. Təbii ki, UEFA Avropa Liqasının final oyununun Bakıda keçirilməsi barədə qərar qəbul edərkən Azərbaycandakı sabitliyi, infrastrukturu, ölkəmizin beynəlxalq tədbirləri təşkil etmək kimi təcrübəsini nəzərə alıb.

Final oyununun Bakıda keçirilməsində Ağdamın "Qarabağ" klubunun UEFA Çempionlar Liqasındakı çıxışı da böyük rol oynayıb. Çünki həmin vaxt Çempionlar Liqasının 3 oyunu Bakı Olimpiya Stadionunda keçirilmişdi. Qrup mərhələsində "Qarabağ"la oynamaq üçün İtaliyanın "Roma", İngiltərənin "Çelsi" və İspaniyanın "Atletiko" klubları Bakıya gəlmişdilər. Hər üç oyun yüksək təşkilatçılığı ilə yadda qalmış, qonaq komandalar ölkəmizdən xoş təəssüratlarla ayrılmışdılar. Həmin komandaların baş məşqçiləri, bütün dünyada tanınan oyunçuları sosial şəbəkələrdən Bakı ilə bağlı xoş fikirlər söyləmişdilər. Bu mənada Bakı şəhəri nüfuzlu futbol yarışlarının keçirilməsi baxımından beynəlxalq futbol aləmi tərəfindən tanınan şəhərdir.

Beləliklə, mayın 29-da Bakı Olimpiya Stadionunda İngiltərə paytaxtını təmsil edən "Çelsi" və "Arsenal" klubları üz-üzə gələcəklər. "Qarabağ"la oynadığına görə Bakı "Çelsi" üçün tanış şəhərdir. Həm bu, həm də digər səbəblərdən "Çelsi"yə Azərbaycan futbolsevərləri də simpatiya ilə yanaşırlar.

Ümumilikdə isə bu oyuna tək Avropa və ya ingilislər deyil, dünyanın bütün futbolsevərləri arasında maraq kifayət qədər böyükdür. Ona görə final yarışmasını canlı izləmək üçün hər iki komandanın minlərlə azarkeşi, futbol həvəskarları Bakıya təşrif buyuracaqlar. Bu oyunun Bakıda keçirilməsi Azərbaycanın növbəti böyük beynəlxalq uğuru kimi tarixə düşəcək. Çünki əvvəllər Bakıda olmayan hər bir xarici vətəndaş Azərbaycanın modern və sivil bir ölkə olduğunu görəcək, paytaxtımızın gözəlliyinin şahidi olacaq. Ən əsası isə odur ki, nümunəvi təşkilatçılığı ilə yenə də qalib Azərbaycan olacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Bədii gimnastımız Zöhrə Ağamirova halqa ilə hərəkətlərdə Avropa çempionatının finalına yüksəlib

Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə Avropa çempionatında Azərbaycan idmançısı Zöhrə Ağamirova fərdi proqramda halqa ilə hərəkətlərdə finala vəsiqə qazanıb. AZƏRTAC xəbər verir ki, çempionatın ikinci günündə gimnastlarımızdan Zöhrə Ağamirova və Veronika Qudis halqa və topla hərəkətlərdə məharətlərini göstəriblər. Z.Ağamirova halqa ilə hərəkətlərdə 20,050 xal toplayaraq səkkizinci yeri tutub. Təmsilçimiz bu nəticə ilə finala vəsiqəni təmin edib. V.Qudis isə halqa ilə hərəkətlərdə 18,250 xalla 19-cu pillədə qərarlaşıb.



Topla hərəkətlərdə isə Z.Ağamirova 20,050 xalla doqquzuncu, V.Qudis isə 17,900 xalla 26-cı olublar.

Dörd gün davam edəcək çempionatın fərdi proqramında böyük gimnastlar, qrup hərəkətləri proqramında isə gənclərdən ibarət komandalar çıxış edəcəklər. Çempionata 35 ölkədən gimnastlar qatılıblar.

Avropa çempionatının birinci günündə gənclərdən ibarət qrup hərəkətləri komandaları çoxnövçülük yarışlarında beş halqa ilə çıxış ediblər. Azərbaycanın gənclərdən ibarət qrup hərəkətləri komandası yarışların finalına yüksəlib. Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə, Milana Əkbərova və Fəridə Səfiyarzadədən ibarət milli komandamız hakimlərdən 21,650 xal alaraq beşinci olub.

Xatırladaq ki, Bakı 2007-ci, 2009-cu və 2014-cü illərdə də bədii gimnastika üzrə Avropa çempionatına evsahibliyi edib.

# Torpağın bərəkəti sudan keçir

## Qubada suvarılan torpaqların ərazisi genişlənir



*Əvvəli 1-ci səh.*

Hazırda onların öhdəsində 14139 hektarı bağ, 4698 hektarı əkin, 360 hektarı tərəvəz-bostan, 3356 hektarı həyətyanı, 3480 hektarı yem bitkiləri olan torpaq sahəsi var. Torpaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin sudan səmərəli istifadə olunması məqsədilə ilboyu müntəzəm iş aparılır ki, vegetasiya dövründə çətinliklər yaşanmasın. Suvarma sistemlərinin təmir-təmizləmə üzrə kompleks tədbirlərini artıq başa çatdırmışıq. Rayonun ərazisində şoranlaşmış və şorakətləşmiş torpaq sahələri də yoxdur. Belə ki, yeraltı qrunt sularının səviyyəsi aşağı olduğu üçün torpaqlarda meliorativ tədbirlərin həyata keçirilməsinə ehtiyac qalmır".

İdarə tərəfindən bu il əkinlərin suvarılması üçün təsərrüfatlara 60,5 milyon kubmetr həcmində su verilməsi nəzərdə tutulub. Rayonda kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin olunmasında əsasən Qudyalçayın, eləcə də digər çayların (Quru çay, Qusar çay, Ağ çay, Qara çay, Cağacuğ çay və Vəlvələ çay) üzərindəki hidrotexniki qurğular və postlardan istifadə edilir. Bundan əlavə, Samur-Abşeron kanalından rayon üzrə su bölgüsünün təsdiq edilmiş su limitləri çərçivəsində cari il 4145 hektar sahənin suvarma suyu ilə təmin olunması nəzərdə tutulur.

Sudan səmərəli istifadə olunması idarənin qarşısında duran ən vacib məsələlərdəndir. Bu məqsədlə Azərbaycan suvarma drenaj infrastrukturunun bərpası və tamamlanması layihəsinin həyata keçirilməsi üzrə işçi qrupunun nəzarəti altında 9600 hektar sahədə mövcud olan suvarma paylayıcı sistemdə kompleks təmir-bərpa aparılıb. Dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri 2016-cı ilin yanvar ayından etibarən 20 illik müddətində Sudan İstifadəedən birliklərin istifadəsinə verilib.

Hazırda rayonda kənd təsərrüfatı istehsalçılarına suvarma suyunun çatdırılması mexanizminin təkmilləşdirilməsi, eləcə də sualtı torpaq sahələrinin su təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bir sıra layihələr həyata keçirilir. Artıq Qara çaydan 5000 hektardan artıq torpaq sahəsini su ilə təmin edən yeni baş qurğu və 17 kilometr uzunluqda nəqledici kanal tikilib istifadəyə verilib. Bu, Birinci Nügədi, İkinci Nügədi, Pirvahid, Mirzəqışlaq kəndləri ərazilərindəki bağ və əkin sahələrini suvarmağa imkan verir. Yeni subartezian quyularının istifadəyə verilməsi istiqamətində də işlər davam edir. Mirzəqışlaq, Atuc, Zərdabi, Pirvahid, Amsarqışlaq, Küpçalqışlaq kəndlərinin hər birində 1, İkinci Nügədi kəndində isə 2 subartezian quyusu istifadəyə verilib. Alpan, Əlibəyqışlaq, Birinci Nügədi, Vəlvələ və Zizik kəndlərində isə bu işə başlanılıb. Quyuların yaxın vaxtlaradək təhvil verilməsi nəzərdə tutulub.

N.Dadaşov onu da bildirdi ki, bu il rayonun kənd təsərrüfatına yararlı torpaq sahələrinin su təminatının daha da yaxşılaşdırılması məqsədilə 27,8 kilometr uzunluğunda təsərrüfat kanallarında təmir-təmizləmə işləri üzrə kompleks tədbirlər həyata keçirilib. Bundan əlavə, sudan daha səmərəli istifadə etmək üçün yeni suvarma üsullarının tətbiqi diqqət mərkəzindədir: "Hazırda rayonumuzda 1000 hektardan çox sahə damcı üsulu ilə suvarılır. Bu suvarma üsulunun üstünlükləri çoxdur. O, həm suya qənaətə imkan verir, həm də su itkisini minimuma endirir. Gələcəkdə damcı üsulu ilə suvarılacaq sahələrin artırılması nəzərdə tutulub".

Bu gün Qubanın ərazisində min hektarlarla istifadəsiz torpaq sahələri mövcuddur. Onların çox hissəsi münbit və əkinə yararlı olduğundan əkinə cəlb edilmələri üçün hazırda suvarma xətləri çəkilir. Ucqar dağ kəndlərindəki sahələrin suvarılmasında isə müasir qurğulardan istifadə edilir. Həmin qurğular suya iki dəfə qənaət edir, məhsuldarlığı artırır.

Bəzi ərazilərdə hidrotexniki qurğular da quraşdırılmaqdadır. Bu hesabla indiyədək 2000 hektar ərazi əkinə yararlı hala gətirilib. Bitkilər növünə uyğun suvarılır. Mövsümi bitkilərin suvarılması idarənin tərtib etdiyi xəritə ilə aparılır. Çünki elə bitkilər var ki, onlar bar verməyə başlayanda suvarılması dayandırılır. Elələri də var ki, daim su ilə təmin edilməlidir. Hazırda belə bitkilərdə damla suvarması geniş tətbiq olunur. Kəndli-fermerlər bu mütərəqqi metodun tətbiqini genişləndirirlər. Artıq əkinə yararlı torpaq sahələrinin su təminatının yaxşılaşdırılması üçün 32 kilometr uzunluğunda təsərrüfat kanallarında təmir-təmizləmə işləri üzrə kompleks tədbirlər həyata keçirilib. Rayon ərazisindən keçən çayların təhlükə gözlənilən hissələrində məcralar təmizlənib, sahilqoruyucu və su istiqamətləndirici torpaq bəndlər qurulub.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# "Azərişıq" ASC qərb regionunda yenidənqurma işlərini davam etdirir

## Tovuz rayonunda elektrik enerjisinin verilişində keyfiyyət artırılıb





"Azərişıq" ölkə üzrə bütün abunəçilərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi təminatında yüksək nəticələri almaqda davam edir. İstismar müddətini başa vurmuş elektrik şəbəkələri yenidən qurularaq texniki itkilərin səviyyəsinin minimuma endirilməsi, kənd təsərrüfatı, sənaye, turizm və digər iaşə obyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə cari ilin ötən aylarında qərb regionunda irimiqyaslı yenidənqurma işləri həyata keçirilib və hazırda davam etdirilir.

Tovuz rayonunda da elektrik enerjisinin verilişində köklü dəyişikliklərə nail olunub. Ötən aylarda görülən işlər sırasında 8 kilometr uzunluğunda olan 6 kilovoltluq (kV) "Aqropark" hava xətti də var. Tam tikilib istifadəyə verilən bu xətt vasitəsilə kənd təsərrüfatı məhsullarının istehsalı üçün münbit şərait yaradılıb. Uzunluğu 5,74 kilometr olan "Ağdam" hava xəttində isə dayaqlar tam dəyişdirilib, 10 kV-luq dayaqlar quraşdırılıb. Rayonun Hunanlar kəndində 3 ədəd, Sarıtala və Qaraboyunlar kəndlərində isə 2 ədəd komplekt transformator məntəqəsi (KTM) quraşdırılıb, ötürücü dayaqlar dəyişdirilib və SİP kabelləşmə işi aparılıb.

Qəsəbə və kəndlərdə yeni KTM-lər quraşdırılıb, dəmir-beton dayaqlar basdırılıb və 1680 metr məsafədə SİP kabelləşmə işi başa çatdırılıb. Özünü daşıyan naqillər üçün 1219 ədəd dayaq yenilənib, 20 min 765 metr məsafədə kabelləşmə işi aparılıb.Cəbhəyanı olan kəndlərdə hazırda yenidənqurma işləri davam etdirilir.

*"Azərbaycan"*


## "Azərsu" ASC-nin "Sutikinti" müəssisəsi karbonatın satın alınması məqsədilə *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Mir Cəlal küçəsi, 34 A, "Azərsu" ASC-nin "Sutikinti" müəssisəsinin təchizat şöbəsinə (əlaqələndirici şəxs - Əhəddin Həsənov, 055-510-71-93) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş təkliflərini **22 may 2019-cu il saat 12:00-dan** gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı, Mir Cəlal küçəsi, 34 A nömrəli ünvandakı inzibati binasında **23 may 2019-cu il saat 12:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

2019/2020-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla

**təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir**

- 050401 Dünya iqtisadiyyatı
- 050403 Maliyyə
- 050404 İqtisadiyyat
- 050402 Mühasibat uçotu və audit
- 050406 Statistika
- 050407 Menecment
- 050410 Dövlət və bələdiyyə idarəetməsi
- 050655 İnformasiya texnologiyaları
- 050656 Sistem mühəndisliyi
- 050409 Biznesin idarə edilməsi
- 050405 Sənayenin təşkili və idarə olunması
- 050408 Marketinq
- 050510 Ekologiya
- 050411 Kommersiya
- 050644 İstehlak mallarının ekspertizası və marketinqi
- 050642 Qida məhsulları mühəndisliyi
- 050321 Dizayn
- 050643 Çoxişlənən malların texnologiyası mühəndisliyi
- 050625 Texnoloji maşın və avadanlıqlar mühəndisliyi
- 050647 Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi

## UNEC-in Zaqatala filialı üzrə

- 050403 Maliyyə
- 050404 İqtisadiyyat
- 050402 Mühasibat uçotu və audit
- 050407 Menecment
- 050655 İnformasiya texnologiyaları
- 050409 Biznesin idarə edilməsi
- 050408 Marketinq
- 050810 Turizm və hotelçilik

Təkrar ali təhsilə qəbul ancaq elektron qaydada **http://www.kabinet.unec.edu.az** internet linki vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar.

*Sənədlərin qəbulu 2019-cu il may ayının 20-dən avqust ayının 1-dək aparılacaq.*

**Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:**

- Rektorun adına ərizə;
- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- Şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: İstiqlaliyyət küçəsi 6, otaq 107**
**Tel.: (012) 492-65-64**

# Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu elmi əsərlərin optimal müddətə və sərfəli qiymətə nəşri və çapının satın alınması məqsədilə

*açıq tender elan edir*

| № | Kitabların adı | Həcmi (səhifə ilə) | Formatı | Cildi | Poliqrafik icrası | Tirajı |
|---|---|---|---|---|---|---|
| 1 | Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix". (Azərbaycan dilində) | 76 | 60x90 1/16 | Nazik | 1+1 | 700 |
| 2 | Yaqub Mahmudovun tarixçilər məktəbi. | 368 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 3 | Biblioqrafiya. | 824 | 70x100 1/16 | Sərt | 4+4 | 700 |
| 4 | Tanıdığımız və tanımadığımız Yaqub Mahmudov. | 392 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 5 | İrəvan qalası - qəhrəmanlıq qalası. (Ərəb dilində) | 44 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 6 | Çuxursəd hakimləri və İrəvan xanları. (Ərəb dilində) | 44 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 7 | Erməni vandallarının yox etdiyi İrəvan məscidləri. (Ərəb dilində) | 44 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 8 | Erməni vandallarının yox etdiyi Xan sarayı. (Ərəb dilində) | 48 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 9 | Real tarix və "böyük Ermənistan" uydurması. (Türk dilində) | 160 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 10 | Histoire reelle et la confabulation sur la grande Armenie. (Fransız dilində) | 156 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 11 | Real tarix və "böyük Ermənistan" uydurması. (Ərəb dilində) | 160 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 12 | Şərəfli ömrün bir səhifəsi: Tarix fakültəsi (1986-1990). | 392 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 13 | Qafqazda nəqliyyatın inkişafı (XVIII əsrin sonu - XX əsrin başlanğıcı). | 400 | 60x90 1/16 | Sərt | 4+4 | 700 |
| 14 | İrəvan qalası - qəhrəmanlıq qalası. (İspan dilində) | 44 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 15 | Çuxursəd hakimləri və İrəvan xanları. (İspan dilində) | 44 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 16 | Erməni vandallarının yox etdiyi İrəvan məscidləri. (İspan dilində) | 44 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 17 | Erməni vandallarının yox etdiyi Xan sarayı. (İspan dilində) | 48 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 18 | Akademik İqrar Əliyevin 95 illiyinə həsr olunmuş məqalələr toplusu. | 384 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 19 | "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi". (Alman dilində) | 592 | 70x100 1/16 | Sərt | 4+4 | 700 |
| 20 | İrəvan əyalətinin kameral təsviri. | 480 | 60x90 1/16 | Sərt | 4+4 | 700 |
| 21 | Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə. | 152 | 60x90 1/16 | Nazik | 1+1 | 700 |
| 22 | Tarixin gedişini dəyişən dahi sərkərdə. | 244 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 23 | Şəki. | 600 | 60x90 1/16 | Sərt | 4+4 | 700 |
| 24 | Şəki biblioqrafiya. | 452 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 25 | Tiflis əmirliyi. | 412 | 60x90 1/16 | Sərt | 4+4 | 700 |
| 26 | Bəzz qalası. | 64 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 27 | Azərbaycanın neft strategiyası. | 304 | 60x90 1/16 | Nazik | 1+1 | 700 |
| 28 | Versal müqaviləsi. | 256 | 60x90 1/16 | Nazik | 4+4 | 700 |
| 29 | Akademik Yaqub Mahmudov elmi yaradıcılığında Qarabağ mövzusu. | 248 | 60x90 1/16 | Sərt | 4+4 | 700 |
| 30 | Mərkəzi Asiya respublikalarında Azərbaycan diasporunun təşəkkülü və fəaliyyəti tarixi | 172 | 60x90 1/16 | Sərt | 4+4 | 700 |
| 31 | Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. | 512 | 70x100 1/16 | Sərt | 4+4 | 700 |
| 32 | Tətəbbö. | 176 | 70x100 | Sərt | 4+4 | 700 |
| 33 | Cahangir Zeynal. | 184 | 60x90 | Nazik | 4+4 | 700 |
| 34 | Səfəvi elçisi Parisdə. | 256 | 60x90 | Sərt | 4+4 | 700 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları tarixə aid kitabların nəşri və çapı sahəsində peşəkarlığı, təcrübəsi, texniki və maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi, etibarlılığı və s. barədə müvafiq sənədləri təqdim etməlidirlər.

Tenderdə iştirak etmək istəyənlər 250 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, H.Cavid pr., 125 *Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstitutundan ala bilərlər.*

**Əlaqələndirici şəxs: Tofiq Hümbət oğlu Nəcəfli**
**Əlaqə telefonu: 012 539-36-15, e-mail: tofig-nacafli@mail.ru**

**DXA**
**VÖEN: 1401555071**
**H/h: AZ93CTRE00000000000004138407**
**VÖEN: 1300532601**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T - CTREAZ 22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **04 iyul 2019-cu il saat 18:00-a** qədər *Bakı şəhəri, H.Cavid pr., 125 Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstitutu, 6-cı mərtəbə 604-cü otaq* ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **05 iyul 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "REGİONAL" Bank Olmayan Kredit Təşkilatı MMC (VÖEN 1303639731)

*31 dekabr 2018-ci il tarixə maliyyə vəziyyətinə dair mühasibat balansı hesabatı*

(AZN manatla)

| Aktivlər | Məbləğ |
|---|---|
| Nağd vəsait və hesab qalıqları | 108779 |
| Kreditlər | 14874 |
| Əsas vəsaitlər | 2940 |
| Qeyri-maddi aktivlər | 34526 |
| Digər aktivlər | 4863 |
| Banklarda yerləşdirilmiş depozitlər | 82820 |
| **Cəmi aktivlər** | **248802** |
| **Passivlər** | |
| **Kapital** | |
| Nizamnamə kapitalı | 300000 |
| Bölüşdürülməmiş mənfəət (zərər) | (51198) |
| **Kapitalın cəmi** | **248802** |
| **Öhdəliklər və kapitalın cəmi** | **248802** |

*31 dekabr 2018-ci il tarixə maliyyə nəticələrinə dair mənfəət və zərər haqqında hesabat*

(AZN manatla)

| Gəlir və xərc maddələri | Məbləğ |
|---|---|
| Faiz gəlirləri | 19460 |
| Faiz xərcləri | - |
| **Xalis faiz gəlirləri** | **19460** |
| Qeyri-faiz gəlirləri | 160 |
| Qeyri-faiz xərcləri | (81777) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **(62157)** |
| **Mənfəət vergisi xərci** | **-** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **(62157)** |

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları şirkətin 31 dekabr 2018-ci il tarixə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***"ANR Audit" MMC-nin direktor-auditoru***
***Abbaslı Namiq Rasim oğlu***

***Bakı şəhəri, Azərbaycan Respublikası***
***07 may 2019-cu il***

# Göygöldə bu ilin məhsulu üçün 8300 hektara yaxın dənli və dənli paxlalıların səpini aparılıb

Bu il may ayının əvvəlinə Göygöl rayonunda 1309 hektar sahədə yazlıq əkin aparılıb.

Göygöl Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, rayonun tarlalarında hələ ötən ilin payızında 2019-cu ilin məhsulu üçün 8228,8 hektar, bu ilin 4 ayında isə 25 hektar dənli və dənli paxlalıların səpini aparılıb.

Həmçinin bu vaxta qədər sahələrə 522 hektar kartof, 205 hektar tərəvəz, 3 hektar dən üçün qarğıdalı, 35 hektar yazlıq yonca, 189 hektar dən üçün günəbaxan, 330 hektar şəkər çuğunduru əkilib.

İndiyə qədər rayon üzrə payızlıq və yazlıq əkinlərin ümumi sahəsi 9537,8 hektar təşkil edib.

Hazırda sahələrdə yazlıq əkini davam edir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin içməli suyun kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 17 may 2019-cu il tarixli yekun protokoluna əsasən "Universal Sales and Services" MMC qalib elan edilmiş və 17 may 2019-cu il tarixdə müqavilə imzalanmışdır.

Ünvan: AZ1005 Bakı şəhəri, Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.

Əlaqələndirici şəxs: Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66.

***Tender komissiyası***

# Gəncə Regional Mədəniyyət İdarəsi 2019-cu il üçün

***kotirovka sorğusu elan edir***

"İstehsalda istifadə olunmayan qeyri-maddi aktivlər"in satın alınması

**Əlaqələndirici şəxs: B.Y.Muradov**
**Tel.: (022) - 266-29-51**
**VÖEN: 2300144211**
**Ünvan: Gəncə şəhəri, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi**

***Tender komissiyası***

***Bakı şəhəri Tİ və MHQİ tərəfindən 1996-cı ildə Şamaybikə İbrahim qızı Məcidlinin adına verilmiş Bakı şəhəri, Binəqədi rayonu, Naxçıvani küçəsi, 28 nömrəli evin həyətində yerləşən qaraja dair Texniki pasport (reyestr № 30/1328) və Çıxarış itdiyi üçün etibarsız sayılır.***

***06.10.2006-cı il tarixdə 1000980681 saylı qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış "Abşeron İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyət təşkilati hüquqi formasının və adının dəyişdirilərək "Abşeron İnşaat" Mənzil-Tikinti Kooperativinə çevrildiyini elan edir.***

# "Qaradağ Maşınqayırma" ASC səhmdarlarının nəzərinə

*28 iyun 2019-cu il tarixdə saat 11:00-da "Qaradağ Maşınqayırma" Açıq Səhmdar Cəmiyyətinin inzibati binasında səhmdarların ümumi yığıncağı keçiriləcəkdir*

**Yığıncağın gündəliyi aşağıdakı məsələlərdən ibarətdir:**

1. 2018-ci ilin hesabatı.
2. Qarşıda duran məsələlər.

*ASC-nin rəhbərliyi*

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova əmisi

**ASLAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Lənkərandan Yaşar Rzayevə qardaşı

**NAMİQİN və oğlu HÜNƏRİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Bakı Şəhər Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Müşfiq Abdullayevə atası

**ORUC MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9055
Sifariş 1594
Qiyməti 40 qəpik